Bizim Ailə

№:11-Yanvar-Fevral-Qadın Ailə Jurnalı

Qolsuz-qanadsız quşlar:

YETİMLƏR

BİZİM AİLƏ
Qadın- Ailə jurnalı
Dövlət Reystr№ 20929

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Samirə Mahmudova

Məsul katib:
Mədinə Əliyeva

Redaktor müavinləri:
Qətibə Vaqifqızı
Eslemnur Məmmədova

Redaksiya heyəti:
Dr.Mehri Məmmədova
Dr.Qiymət Məhərrəmli
Dr.Sevinc Aslanova
Dr.Mehriban Qasımova
Dr.Samirə Həsənova
Zeynəb Nuri
Meryem Demir
Vüsalə Quliyeva
Rəna Mirzəliyeva
Aynur Quliyeva
Aygün Məmmədzadə
Mətanət Kərimova

Abunə və reklam işləri:
Aynur Məmmədova

Dizayn: Bizim ailə

Ünvan: Bakı şəhəri, Cəfərov Qardaşları küçəsi. 16
Tel: (+994 050) 369 65 23
(+994 12) 502 07 55

Web:
www. bizimaile. az
e-mail:
bizimaile@bizimaile.az
bizimailedergisi@yahoo.com

Əziz oxucu!

Dünyada hər il müxtəlif səbəblərdən minlərcə uşaq yetim qalır. Valideyn himayəsindən kənar böyümənin nə qədər acınacaqlı olduğunu onlar daha yaxşı bilirlər.

Təəssüf ki, anası, atası həyatda ola-ola yetim qalan uşaqlar da var dünyamızda. Maddi baxımdan yetim olanların yanında mənəvi baxımdan da yetim olan övladlarımız var. Ona görə də jurnalımızın bu sayında daha çox bu mövzunu qabartdıq. Ataların qoruyucu qanadlarından, yaxud anaların şəfqət və sevgisindən məhrum olan kim bilir nə qədər yetim vardır ətrafımızda. Bu uşaqların bir hissəsi aclıq və səfalət içərisində yaşayırlar. Onlara kömək əlini uzatmaq və onlara şəfqətlə yanaşmaq bütün müsəlmanların vəzifəsidir. Çünki özü də yetim olaraq böyüyən Peyğəmbərimiz (s.ə.s.) insanların yetimlərə yaxşı davranmalarını buyurmuşdur:

"İçində bir yetimə yaxşı davranılan ev, evlərin ən xeyirlisidir. İçində yetimlərə ən pis davranılan ev isə evlərin ən xeyirsizidir".

Vətənimizdə 1990-cı il 20 yanvar hadisəsindən, Qarabağ müharibəsindən sonra yüzlərlə körpə övlad sahibsiz qalmışdır.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri **Mehriban Əliyeva:** *"Uşaqlar Azərbaycanın sabahıdır, gəlin, onların hallarına biganə qalmayaq. Müasir dünya hərbi münaqişələr və qarşıdurmalar, qlobal iqlim dəyişiklikləri, epidemiya, pandemiya kimi bir çox problemlərlə üzləşib, bu problemlər sırasında uşaqların taleyi ilə bağlı problemlər öndə dayanmalıdır",*- deməklə, bu gün hər birimizin üzərinə necə vəzifələr düşdüyünü xatırlatmışdır.

Bu sayımızda möhtərəm **Osman Nuri Topbaşın "Cəmiyyətimizdəki Əlsiz Ayaqsızlar. Yetimlər və Yoxsullar", Qətibə Vaqifqızının Vətənimizin döyünən qəlbi, milli tariximizin qəhrəman şəhəri olan Bakının tarixini canlandıran "Canım Bakı, Qanım Bakı", Sevinc Aslanovanın "Yetimlər bizim üçün rəhmət səbəbi və cənnət qapılarının açarıdır"** adlı məqalələri inanırıq ki, ürəyinizcə olacaqdır.

Əziz oxucularımız 2010-cu ilin bütün insanlara, müsəlman aləminə səadət və xoşbəxtlik gətirməsini və ölkəmizin birlik və bərabərliyinin qorunmasına kömək olmasını arzu edirik.

İÇİNDƏKİLƏR

3

ƏN QAYĞIKEŞ ÜZ, ƏN SƏMİMİ TƏBƏSSÜMƏ EHTİYACI OLANLAR...

6

QOLSUZ, QANADSIZ QUŞLAR

22

YETİMLƏR VƏ YOXSULLAR

36

QANLI YADDAŞIMIZ

ƏN ŞƏFQƏTLİ SIĞAL, ƏN QAYĞIKEŞ ÜZ, ƏN SƏMİMİ TƏBƏSSÜMƏ EHTİYACI OLANLAR...
Samirə MAHMUDOVA.....3

QOLSUZ-QANADSIZ QUŞLAR
Mədinə ƏLİYEVA.....6

"AĞLARSA ƏRŞİ-ƏLA TİTRƏR"
Meryem DEMİR.....8

ONLARIN DA BAŞQA UŞAQLAR KİMİ FİRAVAN YAŞAMAĞA HAQQI VAR..
Vüsalə QULİYEVA.....10

QURANİ KƏRİMİN YETİMRƏR HAQDA DEDİKLƏRİ
Aygün MƏMMƏDZADƏ.....12

BİZİM GƏLƏCƏYİMİZ KİMLƏRDİR?
Şahnaz HƏŞİMOVA.....1.4

SEVGİSİZ ÖVLAD
Xanım HƏMZƏYEVA.....16

YETİMLƏR BİZİM ÜÇÜN CƏNNƏT QAPILARININ AÇARIDIR
Dr. Sevinc ASLANOVA.....17

Hz. ÜMMÜ SƏLƏMƏ (r. a.)
Aynur QULİYEVA.....18

AZƏRBAYCAN ÇİNARLARI
Hatice ŞAHİN.....20

YETİMLƏR VƏ YOXSULLAR
Osman Nuri TOPBAŞ.....22

İMANIN NURU
Ceyhunə QASIMOVA.....28

CANIM BAKI, QANIM BAKI
Qətibə VAQİFQIZI.....30

İNSAN ÖMRÜ
Mətanət KƏRİMOVA.....32

İLK BAHARA HƏSRƏT QIŞ ÇİÇƏYİNİN SEVGİ MESAJI
Xəyalə ABDULAZİM.....34

20 YANVAR FACİƏSİ
Arzu ƏLİYEVA.....36

LƏZZƏT DÜNYASI
Müyesser TAŞLIYAR.....38

MƏTBƏX MƏDƏNİYYƏTİ
Məryəm XƏLİLOVA.....40

GƏLİN BİRLİKDƏ GÜLƏK
Hicran NOVRUZOVA.....42

BOYAMA.....44

Samirə MAHMUDOVA

Ən şəfqətli sığal, ən qayğıkeş üz, ən səmimi təbəssümə ehtiyacı olanlar...

İnsanlığa rəhmət olaraq göndərilən Peyğəmbərimiz Hz. Məhəmməd (s.ə.s.) yetimlik üzüntüsünü hər kəsdən çox bilirdi. Çünki dünyaya atadan yetim olaraq gələn fəzilət sahibi 6 yaşında anadan da yetim qalmışdı. İbnül-Ammar **"Kəşful-Əsrar"** adlı kitabında deyir ki: *"Allah onu yetimlikdə yetişdirdi. Çünki hər böyüyün təməli kiçik, hər zəifin sonu qüvvətli və şərəfli olur. Bu dərəcənin və şərəfin ata-ananın deyil, Allahın iradəsi ilə qazanılması şübhəsiz, labüddür ".*

İmam Əbu Zəhra deyir ki: *"Mərhəmət duyğusu insanın həyatı boyunca çəkdiyi kədər və sıxıntılardan qaynaqlanıb fışqırır. Bu da acizliyin ağrısını dadanlardan başqa heç kimdə görülməz. Məgər yetimlikdən də ağır əziklik vardırmı?"* **(Şeyx Məhəmməd Əbu Zəhra, Xatəmun-Nəbiyyin, I, 131.)**

Yetim yalnız, atası və ya anası olmayan, həddi-büluğ yaşına çatmayan bir kəsə deyilir. Eyni zamanda Əlmalılı Həmdi Yazır həddi-büluğ yaşına çatdığı halda rüşdünü ortaya qoymamış uşağa və əri ölmüş qadının da yetim adlandığını qeyd etmişdir. **(Ə. H. Yazır, Hak Dini Kuran Dili,VIII,5505.)**

Qurani Kərimdə bir çox yerdə yetimlərlə yaxşı davranılması və haqlarının tapdanmaması ilə əlaqədar Allah Təala insanlara xəbərdarlıq etmişdir:

"Yetimlərin mallarını verin, təmizi

murdara dəyişməyin. Onların malları ilə öz mallarınızı qarışdıraraq yeməyin. Çünki bu böyük günahdır". (Nisa, 2); "Yetimlərin mallarını haqsız yerə yeyənlər qarınlarına atəş doldurmuş olarlar. Onlar azğın bir atəşə atılacaqdır". (Nisa, 10)

Peyğəmbərimiz (s.ə.s.) yetim haqlarını istismar edənləri qınamış, onları sevindirənlərin savabının Cənnət olacağı ilə müjdələmişdir:

"Kim Allahın razılığını alaraq bir yetimin başını sığallayarsa, əlinin toxunduğu tük sayı qədər ona savab yazılar. Kim himayəsi altında olan yetimə yaxşılıq edərsə, o zaman mən onunla Cənnətdə belə bərabər olacağam. (Şəhadət barmağı ilə orta barmağını birləşdirib göstərdi) ", - buyurdu. **(Ə. b.Hənbəl, V,250)**

İslam daim yetimlərin, yoxsulların, şikəstlərin qeydinə qalmağı insanlara təbliğ etmiş, onların həyat yollarında irəliləyərkən özlərini arxasız hiss etməmələri üçün tək qoymamağı tövsiyə etmişdir. Atadan və ya anadan, ya da hər ikisindən yetim qalan uşaqların miraslarını qəsb etməyin haram olduğunu bəyan etmiş, onlar böyüyüb həddi-büluğ yaşına çatana qədər mallarını mühafizə edib saxlamağı tövsiyə etmişdir.

Rəhmət peyğəmbəri olan Hz. Məhəmməd (s.ə.s.)in həyatını addım-addım izləyən səhabəyi-kiram da bu haqlara riayət etmiş, bunları həyatlarında düstur halına gətirmişdilər. Onlar digər haqlara riayət etdikləri kimi, yetim haqqına da diqqət yetirərdilər.

Xülafeyi-Raşidindən **"Əsədullah"** ləqəbli Hz. Əli (r.a.) xəlifə olduğu zamanlarda idarəçiliyi altında olanlara yaxşı davranar, bacardığı qədər onların hər məsələdə haqlarına diqqət yetirərdi. Çox işi olmasına baxmayaraq rəiyyəti ilə bir-bir maraqlanmasına dair ibrətli hadisə onda necə böyük Allah qorxusu olduğunu göstərir:

Yaşlı bir qadın bir su tuluğunu güclə daşıyırdı. Təngnəfəs qalmışdı. Arxadan bir kişi ona yaxınlaşaraq nəzakətlə su tuluğunu əlindən alıb çiyninə qoydu və daşımağa başladı. Yaşlı qadının evinə çatanda nəzakətlə su tuluğunu yerə qoyaraq:

-Ana, evində kişi xeylağı yoxdur ki, sənə kömək etsin? Belə ağır su tuluğunu daşıyırsan? - dedi. Qadın

Bir insanın yetimlərin haqlarını qoruması, onların bütün ehtiyaclarını təmin etməsi, təhsil və tərbiyələri ilə məşğul olması, onlara Allah sevgisini, Peyğəmbər sevgisini, vətən sevgisini aşılaması, evlənmə yaşına gələndə onları evləndirməsi həm Allah qatında dərəcələrinin artmasına, həm də Peyğəmbərin yolunun davamçısı olmalarına işarədir.

dərin bir ah çəkərək:

-Ərim, Əbu Talibin oğlu Əlinin göndərdiyi bir savaşda öldü. Amma Əlinin nə vecinə? Bu yetimlərə tək baxmağa məcburam, - dedi.

Kişi başını aşağı əyib heç nə söyləmədən oradan uzaqlaşdı. Bir az keçmişdi ki, içində ət, un, xurma və bəzi ərzaqlar olan bir səbətlə evin qapısını döydü. Qapını açan yaşlı qadına:

-Ana, uşaqlar üçün bir az azuqə gətirmişəm. Allah rizası üçün qəbul et.

Qadın sevinclə səbəti alaraq: "*Allah razı olsun*",- dedi. "*Əlini də artıq Allaha həvalə edirəm. Mənimlə Əli arasında Allah hakim olar, inşallah*" , - dedi.

Kişi bunu eşidəndə qadına dedi:

-Əgər icazə versən bu undan öz əlimlə xəmir yoğurub uşaqlara yemək hazırlayardım. Bu savabı məndən əsirgəmə.

Qadın:

-Xəmir yoğurub çörək bişirməyi mən daha yaxşı bacarıram. Əgər mənə kömək etmək istəyirsənsə yetimlərin başını qat. Onda böyük yaxşılıq etmiş olarsan,- dedi.

Yaşlı qadın çörək bişirməyə gedəndə kişi bir az ətlə xurma götürüb ocağın başında oturdu. Ətləri qızardıb xurma ilə birlikdə uşaqlara yedirtdi.

Xəmir hazır olanda qadın içəriyə səsləndi:

-Xəmir hazırdır, təndiri yandır.

Kişi tez təndiri yandırıb yanında oturdu. Təndirdən alovlar yüksəlincə, üzünü alova tutub:

-Dad indi alovu görüm, sən bu cür camaatın dərdinə qalırsan. Yetimlərlə dulların haqqını verməyənin dostu atəşdir, - deyərək şikayətlənirdi.

Bu zaman qadının təndirinin alov aldığını görən qonşu qadın maraqlanıb içəri girdi. Təndirin başında öz-özünə danışan adama yaxınlaşanda təəccübdən gözü bərələ qaldı. Xəmiri təndirə vermək üçün hazırlayan qonşusunun yanına gedib dedi:

-Sən təndiri yandıran kişinin kim olduğunu bilirsən?

Qadın tanımadığını deyəndə, qonşu:

-O möminlərin əmiri Əbu Talib oğlu Əlidir,- dedi.

Qadın qorxu və tələş içində Hz. Əlinin yanına gəlib:

-Bağışlayın, haqqınızı halal edin. Sizi tanımamışam. Qoyun işləri, özüm edəcəm, –dedi. Hz.Əli:

- Əksinə siz haqqınızı halal edin. Sizə diqqət yetirib qayğınıza qalmamışam, - dedi.

O gündən sonra Hz. Əli yetimlərin dolanışığını özü təmin etmiş və onlarla yaxından maraqlanmışdı.

Bir insanın yetimlərin haqlarını qoruması, onların bütün ehtiyaclarını təmin etməsi, təhsil və tərbiyələri ilə məşğul olması, onlara Allah sevgisini, Peyğəmbər sevgisini, vətən sevgisini aşılaması, evlənmə yaşına gələndə onları evləndirməsi həm Allah qatında dərəcələrinin artmasına, həm də Peyğəmbərin yolunun davamçısı olmalarına işarədir. Yetimlər qəlbi qırıq, həssasdırlar. Ata-ana şəfqəti və sevgisindən məhrum olduqları üçün həyatda özlərini tənha və bədbəxt hiss edərlər. Onları himayəyə alıb imkan olduğu qədər maddi və mənəvi yardım göstərmək Hz.Peyğəmbərin hədisində buyurduğu kimi axirətini satın almasına səbəb olar: "*Kim bir yetimi himayəsinə alıb ona qayğı göstərərsə, axirətdə mənimlə bərabər olacaqdır*".

Mədinə ƏLİYEVA
medine_e@yahoo.com

QOLSUZ-QANADSIZ QUŞLAR

İsti bir ailə yuvasına və sevgi ilə baxan bir cüt gözə həsrət neçə-neçə insan var. Bunlardan biri də qolsuz-qanadsız qalmış quşlarımız olan yetimlərdir. Hər an göz yaşı içində olarlar. Hər an sevgiyə, şəfqətə möhtac olan da onlardır.

Zamanın su kimi axdığı günümüzdə bir sıra səbəbdən uşaqlarımız yetim qalır. İqtisadi çətinlik üzündən boşananların ortalıqda qalan övladları və yaxud ailədə göstərilən şiddət və sevgisizlik ucbatından küçələrə atılan uşaqlar da bu vəziyyətdədirlər. Cəmiyyətin və ailəsinin sevgisini, şəfqətini görməyən bu uşaqların bir qismi öz dünyasına qapanıb həyatdan küsdüyünü, digər bir hissəsinin də təcavüzkar, problemli və günah işləyən fərd olaraq qarşımıza çıxır. Buna görə də bizlərə düşən vəzifə də onlara sevgi və şəfqət göstərməkdir.

Yetimlər cəmiyyətimizə Allahın əmanətidir. Yetimləri qorumaq, onları himayə etmək Peyğəmbərimiz (s.ə.s.)ə qarşı bir borcdur. Unutmayaq ki, Peyğəmbərimiz də bir yetimdi. Yetimliyin nə olduğunu da çox gözəl bilirdi. Onları gördükdə qol-qanad gərərdi.

Bir bayram günü Peyğəmbərimiz (s.ə.s.) məsciddən çıxdıqda üst-başı cırıq, başını iki əli arasına alıb, hıçqıra-hıçqıra ağlayan bir uşaq gördü. Aləmlərə Rəhmət olaraq göndərilən Peyğəmbərimiz (s.ə.s.) bu uşağa yaxınlaşdı. Abdullah adlı bu uşaq ta kiçik

Yetimləri xor görmək, onları incitmək, haqlarını yemək cahiliyyə dövrünün adətlərindəndir. Bizlər canımızdan, qanımızdan olan övladlarımızı necə sevib, oxşayırıqsa yetimləri də elə sevib oxşamalıyıq.

yaşında ikən atası müharibədə şəhid olmuş, anası da başqasıyla evləndikdə ögey atası Abdullahı evində görmək istəməmişdi. Buna görə də kimsəsiz qalmışdır. Üstəlik sabahdan bəri də yeməyə bir şey tapmamışdı.

Peyğəmbərimiz (s.ə.s.) Abdullahdan niyə görə ağladığını soruşur:

Abdullah kədərli olduğu üçün Peyğəmbərimizi tanıya bilməmişdi.

-*"Əmi, soruşma, atam bir müharibədə şəhid oldu, anam yenidən evləndi, ögey atam məni istəmədi. Mən də kimsəsiz qaldım"*.

Peyğəmbərimiz (s.ə.s.)in mübarək gözləri yaşla doldu və yetim Abdullaha:

-*"Abdullah sən Həsənlə, Hüseynə qardaş olmaq istəyərsənmi?"*,-deyə soruşdu.

Həsən və Hüseyn adını eşidən yetim Abdullah onların Peyğəmbərimiz (s.ə.s.)in nəvələri olduğunu xatırladı və:

-*"Əlbəttə, istəyirəm"*,-cavabını verdi.

Peyğəmbərimiz bu dəfə:

-*"Fatiməyə övlad, Peyğəmbərə nəvə olmaq istəyərsənmi?"*- deyə soruşdu.

-*"Bəli, istəyirəm"*.

Peyğəmbərimiz (s.ə.s.) yetim Abdullahın əlindən tutub:

-*"Elə isə bizə gedirik, bundan sonra sən də mənim nəvəmsən"*,- dedi.

Abdullah Peyğəmbərimiz (s.ə.s.)in əllərindən öpdü və birlikdə evə getdilər. Aylardır yemək yeməyən Abdullahın qarnı ilk dəfə yaxşıca doydu və təzə paltarlar geyindi. Peyğəmbərimizdən icazə alıb uşaqlarla oynamağa getdi. Amma bu dəfə kənardan seyr etmirdi. O da oynamağa başlamışdır. Uşaqlar Abdullahdakı bu dəyişikliyi görüb soruşdular:

-*"Abdullah, bir saat bundan əvvəl ağlayırdın, üstün-başın tökülürdü, indi baxırıq təzə paltarlar geyinmisən, aramıza qarışıb oynayırsan. Səbəbi nədir?"*

Abdullah halından razı olaraq gülümsədi və:

-*"Mənim yerimdə olsanız siz də sevinərdiniz. Mən Hz. Əli ilə Hz. Fatiməyə övlad, Həsənlə Hüseynə qardaş, Peyğəmbər (s.ə.s.)in nəvəsi oldum"*, -dedi.

Uşaqlar dərindən köks ötürdülər. Bir ağızdan dedilər:

-*"Kaş ki, biz də sənin kimi yetim və kimsəsiz olaydıq, Peyğəmbər nəvəsi olmaq şərəfini qazanaydıq. Abdullah sənə həsəd aparırıq"*.

Yetimi sevindirmək çox savabdır. İnsanı Cənnətə, yüksək məqamlara çatdırır.

Yetimləri xor görmək, onları incitmək, haqlarını yemək cahiliyyə dövrünün adətlərindəndir. Bizlər canımızdan, qanımızdan olan övladlarımızı necə sevib, oxşayırıqsa yetimləri də elə sevib oxşamalıyıq.

Meryem DEMİR

“AĞLARSA ƏRŞİ-ƏLA TİTRƏR”

İslam fərdi məsuliyyətlərlə yanaşı cəmiyyətə qarşı məsuliyyətlər də gətirmiş olan dindir.

Cəmiyyəti canlandıran, mənəvi olaraq çökmüş insanlara ruh verən, maddi problem yaşayan insanlara maddi dəstək verən, ictimaiyyəti içinə alan bir qurumdur.

Allah-Təala digər canlıları özbaşına yaşaya biləcəkləri xüsusiyyətdə yaratdığı halda insanı uzun müddət ata-anası tərəfindən baxılmağa möhtac yaratmışdır.

Dünyaya gələn uşaq üstünə qonan milçəyi qovmaqdan acizdir. Allah ona ata-anasını xidmətçi vermişdir. İnsanın maddi-mənəvi ən böyük dəstəyi olan bu iki dəyərli insandan birini itirməsi ruhi sarsıntıya səbəb olur. Onların maddi-mənəvi yaralarına əlac olmaq ümmətin borcudur.

Bir çox ayədə yetimlərin doydurulması Allahın rizasını qazanmağa, cənnətə girməyə vəsilə göstərilmişdir. İnsan surəsinin 8-ci ayəsində Allahın xas qullarının xüsusiyyətləri sayılarkən belə buyurulur: “Onlar öz iştahaları çəkdiyi halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər.” Bu ayədə səmimi möminlərin bəyənmədiklərini deyil, sevdiklərini və faydalana biləcəkləri nemətləri möhtaclara, yetimə, əsirə verdikləri ifadə edilir. Eyni zamanda sonrakı ayədə bu işi sırf Allahın rizası üçün etdikləri bildirilir. Allahın verdiyi nemətləri yoxsul və himayəyə möhtac olanlarla paylaşmaq, başqalarını da bu işə təşviq edərək ictimai düşüncənin formalaşmasına çalışmaq müsəlmanın borcudur.

Bunun əksinə, dinimizdə yetim və yoxsullara qarşı hissiyyatsız olanlar qınanmışdır. Uca Allah bəhs etdiyi nemətlər qarşısında cavabdehliyini yerinə yetirməyən insana Bələd surəsində səslənərək maneəni aşa bilmədiyini bildirir. Maneədən keçə bilməməsinin səbəblərindən biri də yetimi və yoxsulu doydurmaqdır. Onlara qarşı laqeyd olmasıdır. “Lakin o, əqəbəni (maneəni) keçə bilmədi. Sən nə bilirsən ki, əqəbə nədir?! (O) bir kölə azad etməkdir; Yaxud aclıq günü yemək verməkdir - Qohumluq əlaqəsi çatan bir yetimə. Və ya (taqətsizlikdən) torpağa sərilmiş bir miskinə!” (əl-Bələd, 11-16)

“Elə isə yetimə zülm etmə!” (əd-Duha, 9)

“Dini yalan hesab edəni gördünmü? O elə adamdır ki, yetimi itələyib qovar.” (əl-Maun, 1-2)

Bu ayələr yetimi qorumağa, onu incitmədən necə yardım ediləcəyinə bir nümunədir.

Hədisi-şəriflər də hər zamankı kimi bizə rəhbərdir:

"Müsəlman evlərinin ən xeyirlisi içində yetimə yaxşı rəftar edilən evdir. Müsəlman evlərinin ən pisi də yetimə pis rəftar edilən evdir." (İbn Macə, Ədəb, 6)

Allah Rəsulu qapımızı yetimlərə açmağımızı istəyir, lakin açmaq da kifayət etmir, onlara xoş rəftar sərgiləməyimizi istəyir.

"Hər kim sırf Allah rizası üçün bir yetimin başını oxşasa əlinin dəydiyi hər saç telinə görə ona savab yazılar." (Əhməd, 5, 250)

Yəni savabı saymaqla qurtarmaz...

Qəlb qatılığına da şəfadır yetimlər:

Qəlbinin qatılaşdığından şikayət edən bir səhabəyə Rəsulullah (s.ə.s) "Əgər qəlbinin yumşalmasını istəyirsənsə fəqiri doydur, yetimin başını oxşa!" buyurmuşdur. (Əhməd, 2, 263, 387)

Yetimlərin ən böyük təsəllisi heç şübhəsiz ki, Rəsulullahdır. O, şəxsən yetimlərlə maraqlanmış, bizə də bu xüsusda nümunə olmuşdur.

Hz. Həmzənin qızı Ümamə (r.anhuma)-nın kimin himayəsinə veriləcəyi xüsusunda Hz. Əli, Zeyd və Cəfər (r.anhum)-un mübahisə etdiyi zaman o, Hz. Əlinin xanımı Ümamənin xalası olduğu üçün bu gözəl vəzifəni ona vermişdir.

Səhabələrin də Rəsulullahın sünnəsini eynilə həyata keçirdiyinin şahidi oluruq.

Həmçinin Cəfər (r.a) şəhid edildikdən sonra oğlu Abdullah b. Cəfər (r.a) Rəsulullahın onlarla yaxından maraqlandığını göstərən hadisələrdən danışmışdır. Bunlardan biri belədir:

"Yaxşı yadımdadır, mən və Hz. Abbasın oğlu Qusəm ilə Übeydullah uşaq ikən bir gün yolda oynayırdıq. Allah Rəsulu bir miniyin üstündə yanımıza gəldi. Məni göstərərək "Bunu yanıma qaldırın!" dedi və məni ön tərəfinə oturtdu. Qusəmi də göstərərk "Bunu da qaldırın!" dedi və onu da tərkinə aldı. Sonra üç dəfə başımızı oxşadı və hər dəfəsində "Allahım, Cəfərin övladlarına Sən sahib çıx!" deyə dua etdi" (Əhməd, 1, 205; Hakim, 3)

Şeyx Sədi Şirazi Bostan və Gülüstan adlı əsərində yetim ağladıqda ərşin nə üçün titrədiyini necə də gözəl anladır: "Atası ölmüş uşağı himayə et, tozunu silkələ, bir yerinə tikan batmışsa çıxar. Yetimin nə qədər aciz olduğunu bilirsinizmi? Kimsəsiz ağac böyüyüb boy atarmı? Bir yetimi başını əymiş, fikirli, məyus gördüyün zaman sən öz uşağının üzündən öpmə. Yetim ağlarsa nazını kim çəkər? Hirslənərsə hirsini kim soyudar? Amandı, yetim ağlamasın! Çünki o ağlarkən ərşi-əla titrəyər. Yetimə mərhəmət göstər. Gözünün yaşını sil. Üzünə torpaq bulaşmışsa onu şəfqətlə təmizlə. Atam məni "oğlum!" deyib qucaqladığı zaman özümü padşah sayırdım. Üstümə bir milçək qonsa evdə kim varsa hamısına divan tutardı. İndi isə elə haldayam ki, məni düşmənlər əsir alsa, yardıma gələcək dostum yoxdur. Mən yetimin dərdini anlayıram. Çünki atam məni uşaq ikən tərk edib getmişdir.

Bir adam yetimin ayağına batmış bir tikanı çıxartdı. Vəfatından sonra Sədri xoca adında böyük bir şeyx onu yuxuda gördü. Cənnət bağçalarında istirahət edərkən "bir tikana görə necə də gözəl güllər bitdi mənim üçün." -deyirdi. Bir kitabda "comərdlik böyüklərin adətidir" deyilirdi. Xeyr, səhv dedim. Peyğəmbərlərin adətidir."

"Müsəlman evlərinin ən xeyirlisi içində yetimə yaxşı rəftar edilən evdir. Müsəlman evlərinin ən pisi də yetimə pis rəftar edilən evdir." (İbn Macə, Ədəb, 6)

Vüsalə QULİYEVA

ONLARIN DA BAŞQA UŞAQLAR KİMİ FİRAVAN YAŞAMAĞA HAQQI VAR...

Yetim və valideyn himayəsindən məhrum olan uşaqları böyüdüb, boya-başa çatdırmaq, onları ən mükəmməl şəkildə yetişdirmək, onları müəyyən bir sənət sahibi etmək, həddi-büluğ yaşına çatanadək onlara sahib çıxmaq hər birimizin üzərinə düşən vəzifələrdəndir. Allah Təala bizə *"yetimin haqqını qorumaq, onun malına göz dikməmək"* barəsində Qurani Kərimdə və hədislərdə xəbərdarlıq etmiş, hətta bir yetimin nəinki qayğısına qalmaq, onun başını oxşamağın belə böyük savablara nail olacağını bildirir. Bu baxımdan keçmişdən bu günümüzə qədər yetimlərin qayğısına qalmaq, onlara sığınacaq vermək bütün dünya dövlətlərinin üzərində ciddiyyətlə durduğu əhəmiyyətli məsələlərdən olmuşdur. Bu məqsədlə yetimlərə, kasıblara sahib çıxmaq üçün qurumlar, xeyriyyə cəmiyyətləri yaradılmışdır. Bu qurumlar vasitəsilə kimsəsiz uşaqların sosial ehtiyacları ilə yanaşı, təlim-tərbiyə işləri də diqqət məsrkəzində saxlanılmışdır. Dünyada bu sahəyə aid bəzi məlumatlara diqqət edək. Uşaqlara yardım qurumu olan **"Save the Children"** dünyada yetimxanalarda yaşayan hər beş uşaqdan dördünün əslində bir ailəsi olduğunu, ailələrin daha yaxşı bir yaşam tərzi olması ümidiylə uşaqlarını buralara tərk etdiyini açıqlayır.

Yardım quruluşu uşaqlarına baxa bilmələri üçün ailələri dəstəkləyən layihələrə qaynaq saxlanması və uşaqlarla bağlı quruluşlara ciddi şəkildə nəzarət edilməsini tövsiyyə edir. **"Save the Children"** dünyada yetimxanalar, ya da bu kimi qurumlarda təqribən 8 milyon uşağın yaşadığını, ancaq çoxu rəsmi qeydə alınmadığı üçün həqiqi rəqəmin çox yüksək ola biləcəyini vurğulayır. Dünya təcrübəsindən əldə edilən məlumata görə, yetim uşaqlarla maraqlanan Corinna Csaky yetimxanalardakı uşaqlarla əlaqəli hesabatında bildirir ki: *"Yetimxanalardakı uşaqların ailələrinin olmadığı həqiqət deyil. Çox ailələr özlərini təmin edə bilmədiyi, təlim-tərbiyə verə bilmədiyi üçün uşaqları ora qoyurlar"*. Qeyd etdiyimiz kimi müsəlman dövlətlərində də xeyir işlər görmək, dövlətin yetişə bilmədiyi sahələrdə yaraları sarımaqda əlindən gələni əsirgəməyən xeyriyyəçi qurumlar yaradılmış, kimsəsizlərə, kasıb və ehtiyacı olanlara qayğı göstərilmişdir. Hz. Peyğəmbərin

(s.ə.s.) dövründən etibarən bu xeyriyyə qurumları orduya kömək etmiş, kasıb və yetimləri qida və sığınacaqla təmin etmiş, xəstələrin müalicə olunmasına, elmin yayılmasına, tələbələrin maddi və mənəvi cəhətdən dəstəklənməsinə və bu kimi sahələrdə köməklərini əsirgəməmişlər. Azərbaycanda da yetim uşaqların qayğısına qalan xeyriyyəçilər olmuş və bu xeyriyyəçilərdən ən məşhuru H.Z.Tağıyev yetimlərə arxa olmuş, onların təhsil almalarına böyük kömək etmişdir. Danılmaz və arzu olunmaz faktdır ki, dünyanı bürüyən bu qlobal məsələ Azərbaycandan da yan keçməmişdir. Bu gün Azərbaycanda statistik məlumatlara əsasən, təqribən 17.000 uşaq dövlət müəssisələrində yaşayır, çünki onların valideynləri onlara qayğı göstərə bilmirlər. Azərbaycanda belə müəssisələrdə yaşayan uşaqların əksəriyyəti bütövlükdə körpəlik, uşaqlıq və yeniyetməlik dövrünü bu müəssisələrdə keçirərək, çox vaxt ailələri ilə bütün rabitəni itirirlər.

Bizdə də uşaqları kimsəsizliyə düçar edən bəzi vaxt məsuliyyətsiz valideynlərin, bəzən də keçimsizlik ucbatından məcbur qalıb yetimlər evinə tərk edən valideynlər səbəbilə internat məktəblərinin, uşaq evlərinin mövcudluğu bizi də təəssüfləndirir. Ancaq bu uşaqların da heç bir günahı olmadığı, onların da yaxşı yaşamaq haqları olduğu həqiqətdir. Onlara qucaq açmaq, dərdlərinə şərik olmaq, qayğılarına qalmaq hər bir vətəndaşın borcudur. Allah Təalanın əmrini bir daha xatırlasaq yetimlərin təkcə yetim evində böyüdüyü müddətdə qayğısına qalmaqla vəzifəmizin bitmədiyinin, onların mallarını idarə edənədək onlara sahib çıxmağımızı bildirmişdir. Uşaq evlərini bitirdikdən sonra kimsəsiz uşaqların taleyi daha əhəmiyyətli məsələdir. Bu kimi müəssisələrdən ayrılan uşaqların istismar olunmaması üçün hər imkanlı şəxslərin və ya qurumların fədakarlıq göstərib bu uşaqlara sahib çıxmaları onları taleyin əlinə buraxmamaqdır. Doğrudan da, bu müəssisələrdə böyüyən uşaqların sonradan işsiz qalmaq, yoxsul olmaq, qanunsuz hərəkətlər etmək, insan alveri kimi mənfi hallarla qarşılaşmaq ehtimalı daha böyükdür. Bu mənfi halların qarşısını almaq məqsədilə Azərbaycan Prezidentinin 2006-cı il 29 mart tarixli fərmanı ilə *«2006-2011-ci illərdə uşaqların ailələrə verilməsi və alternativ qayğıya dair dövlət proqramı»* qəbul edilmiş, bu sənəd 2015-ci ilə qədər Azərbaycanda uşaq müəssisələrinin maksimum azaldılmasını, valideyndən məhrum uşaqların alternativ qayğı ilə təmin olunması, onların ailələrə verilməsini nəzərdə tutulmuşdur. Prezidentimizin dəstək verdiyi bu proqrama əsasən Azərbaycanda mövcud uşaq evlərinin forması dəyişdirilərək ailələrə yardım mərkəzinə çevrilməli, uşaq evləri ləğv olunaraq və ya başqa xarakter alaraq uşaqlarından imtina etmiş valideynləri geri addımlar atmağa təşviq etməlidir. Çünki alternativ qayğı müəssisələrində yaşayanlar artıq öz valideynləri üçün ağır yük olmayacaqdır.

Yetim və valideyn himayəsindən məhrum olan uşaqları böyüdüb, boya-başa çatdırmaq, onları ən mükəmməl şəkildə yetişdirmək, onları müəyyən bir sənət sahibi etmək, həddi-büluğ yaşına çatanadək onlara sahib çıxmaq hər birimizin üzərinə düşən vəzifələrdəndir.

Aygün MƏMMƏDZADƏ

Qurani-Kərimin yetimlər haqda dedikləri

Müqəddəs kitabımız Qurani-Kərimdə yetimlərlə bağlı 23 ayə nazil olmuşdur. Gəlin həmin ayələrdən bir neçəsi üzərində düşünək.

"...Biz bir zaman İsrail oğullarından: "Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara ehsan (yaxşılıq, kömək) edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!" - deyə əhd-peyman aldıq..." **(əl-Bəqərə, 83)**

Burada gördüyümüz kimi Allah-Təala əvvəlki ümmətlərə də yetimə qarşı xoş rəftar etməyi əmr etmişdir. Çünki Allahın rəhməti yer üzünə kimsəsizlər, miskinlər və yetimlər sayəsində nazil olar. Uca Yaradan eyni əmrləri ümməti-Məhəmmədə də təkrarlayır:

"Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın dosta, (pulu qurtarıb yolda qalan) yolçulara, əlinizin altında olana (sahib olduğunuz qul və kənizlərə) yaxşılıq edin!.." **(ən-Nisa, 36)**

Müsəlmanlar ilk dövrlərdə namaz qılarkən Beytül-Məqdisə yönəlirdilər. Sonra Uca Allah müsəlmanların qibləsini Kəbə istiqamətinə çevirdi. Bu da Mədinədə yaşayan əhli-kitabla bəzi müsəlmanlara ağır gəldi. Bunun üzərinə də Allah-təala lüzumsuz xırdaçılıqlarla məşğul olaraq gündəmini yersiz məşğələlərlə dolduran insanlara xəbərdarlıq edərək əsl yaxşı əməlin içində yetimlərin də olduğu siniflərə yaxşılıq etmək, namaz qılmaq və s. kimi daha mühüm işlər ol-

Unutmamaq lazımdır ki, Allah Rəsulu da atasız-anasız böyüdü. Ehtiyacını qarşıladığımız hər yetimə bu gözlə baxmalı, xidmət edərkən bu həssaslıqla davranaraq könüllərini qırmamağa çalışmalıyıq.

duğundan xəbər verdi:

"Yaxşı əməl heç də (ibadət vaxtı) üzünü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və peyğəmbərlərə inanan, (Allaha) məhəbbəti yolunda malını (kasıb) qohum-əqrəbaya, yetimlərə, yoxsullara, (pulu qutarıb yolda qalan) yolçulara, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə və cihad zamanı (məşəqqətlərə) səbir edənlərdir..." **(əl-Bəqərə, 177)**

Bildiyimiz kimi İslamdan əvvəlki cahiliyyət dövründə yetimlər, kimsəsizlər, zəiflər və dul qalan qadınlar haqsızlığa uğrayırdılar. Onların malları qəsb edilir, bütün hüquqları tapdanırdı. Bəşəriyyətin hər fərdinə haqqını verən İslamın gəlişindən sonra bu kimi mənfiliklər aradan qaldırıldı və Allah-Təala yetimlərin mallarını haqsız yerə yeməyin günah olduğunu xəbər verdi. Uca Yaradan bu haqda belə buyurur:

"Yetimlərin mallarını (həddi-büluğa çatdıqda) özlərinə verin və pisi (haramı) yaxşı ilə (halalla) dəyişdirməyin! Onların mallarını öz mallarınıza qatıb yeməyin! Həqiqətən, bu, böyük günahdır." (ən-Nisa, 2)

Allahın bu xəbərdarlığına məhəl qoymayanlar və kimsəsiz olduğu üçün yetimə zülm edənlərin aqibəti isə belə xəbər verilir:

"Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər." **(ən-Nisa, 10)**

Digər tərəfdən Qurani-Kərim və Hədisi-Şəriflər yetimə himayədarlıq etməyin nə qədər savab olduğunu da bildirmiş və bu kimi yaxşılıqlar edənlərin mükafatının qat-qat çox olacağından xəbər vermişdir. Hər halı ilə biz müsəlmanlara ibrət olan Allah Rəsulu və onun yaxınları bu xüsusda da bizim üçün nümunədirlər. İnsan surəsində Hz. Əli ilə Hz. Fatimənin halı bizə belə örnək göstərilir:

"Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik." **(əl-İnsan, 8-9)**

Unutmamaq lazımdır ki, Allah Rəsulu da atasız-anasız böyüdü. Ehtiyacını qarşıladığımız hər yetimə bu gözlə baxmalı, xidmət edərkən bu həssaslıqla davranaraq könüllərini qırmamağa çalışmalıyıq.

AİLƏ MƏKTƏBİ

Şahnaz HƏŞİMOVA

BİZİM GƏLƏCƏYİMİZ KİMLƏRDİR?

Bu suala cavab axtaranda qəlbimi qorxu bürüdü. İlahi, bir çox mənəvi gözəlliklərdən məhrum etdiyimiz övladdırmı gələcəyimiz? Körpəmiz dünyaya gələndə çox sevinirik, təbii haldır, amma sevimlimiz olan balacanın qayğılarını problem olaraq görür, onu incidir, bir-iki yaşından başlayaraq onu qorxuduruq ki, dəcəllik etməsin. Qorxaq körpə yalan danışır, yaşına görə kiçik, böyüdükcə isə böyük səhv addımlar atmağa davam edir. Yalanların ardı kəsilmir. O, bizə yalan danışırsa övladımızla dost ola bilməməkdən və onu psixoloji olaraq sıxdığımızdan yaranırmı xoşagəlməz hallar? Ya da çox sevdiyimizdən kiçik yaşından zəhmət çəkmədən hər arzusuna qovuşduraraq prinsipsiz bir **"vətən oğlu"** böyüdür və müəyyən yaşa çatanda ondan nə isə tələb edirik. Hətta eqoist övladımızı **"qoruyaraq"** onu vətənə qulluqdan da yayındırır və yaxud gözəl formalaşdırmadığımız övladımızı dəbdəbəli geyindirib, bəzəyib-düzəyib çox erkən yaşda istəyinə uyğun oldu-olmadı ailə həyatı qurmağa təhrik edirik. Şiddət görən uşaqların aqibəti isə daha acınacaqlıdır. Görəsən, çatışmazlığı olan balamızın bu hala düşməsində özümüzü günahkar görürükmü?

Hər bir uşağın həyatında məktəb illəri çox vacibdir. (Təlim-tərbiyəsi, dostları, onun yaxşı və ya pis xatirələri...)

Bəs, biz övladımızın təhsil almağı üçün düzgün addımlar atırıqmı?

İnkişaf və tərəqqi xatirinə xarici dilli məktəbə qoyuruq, uşaq beyni isə informasiya qəbul etməyə açıq bir bazadır, gördüyünü tez götürəndir. Xarici dilli məktəbə qoymaqla və avropalılaşmağa cəhd etmək məqsədimiz olur. Beləliklə, milli dəyərlə-

rimizi, mənəviyyatımızı dolğunlaşdıran faktorlardan uzaq bir uşaq dilimizi yad sayır. Əslində isə onun qəlbi bizə yadlaşır, nəticədə C. Məmmədquluzadənin **"Anamın kitabı"**ndakı ananın oğullarının halını yada salmırmı? Valideyn kimi övlad qarşısında borcumuzu veririk, həm mənəvi, həm də maddi... yenə sual meydana gəlir. Bəs, bunu edərkən düzgün qərarlar veririkmi?

Əgər elədirsə niyə mədəniləşmək əvəzinə vəhşiləşir cəmiyyətimiz. Məgər cəmiyyət elə biz deyilik? Onda belə çıxır ki, biz özümüzük gələcəyimiz, sadəcə ayrı-ayrı simalarda. Bizim yetişdirib tərbiyə etdiyimiz bu simalar iflicdirsə necə parlaq cəmiyyətdən söhbət gedə bilər? Bu təbii yaranan sualları cavablandırmaq çətindir. Mükəmməl insan yoxdur deyib qüsurlarımızı ört-basdır edirik. Nəticədə qüsurlarımız böyüyür, qabarır, öncə özümüzə sonra ətrafımıza mənfi təsir göstərir. N.Tusi etdiyi kimi – heç olmasa bir ay hər gün bir dəftərə özümüzlə olmadığımız qədər qələmimizlə dürüst olaq. İki yerə ayırdığınız dəftərin bir hissəsinə pis əməl və xüsusiyyətlərinizi, digər hissəsinə isə yaxşı əməl və xasiyyətlərinizi qeyd edin. Qeyri-real düşünmək istəmirəm, lakin çox ümid edirəm yaxşı əməl və xasiyyətimiz olan hissə daha qabarıq olar. Bəlkə, şansa yox, hərəkətlərimizə inanaq?

Düşünərək hərəkət etsək kifayət qədər təcrübə və bilik əldə etdikdən sonra valideyn olsaq bir çox qüsurların qarşısını, sizcə, almış olmarıqmı? Yazarkən cəmdə yazdım qüsur tutmayın, çünki biz cəmik, çoxuq. İnşallah, mövqeyimiz də güclü olar ki, bu qeydləri oxuyarkən özümüzə şamil etməli olmarıq. Cəmiyyətimizə, gələcəyimizə düzgün şəxslər yetişdirək ki, sonda peşman olmayaq. Axı sonrakı peşmançılıq fayda etməz.

Allah mənəvi dəyərlərimizi, əxlaqımızı bol etsin.

Amin!

Düşünərək hərəkət etsək kifayət qədər təcrübə və bilik əldə etdikdən sonra valideyn olsaq bir çox qüsurların qarşısını, sizcə, almış olmarıqmı? Cəmiyyətimizə, gələcəyimizə düzgün şəxslər yetişdirək ki, sonda peşman olmayaq. Axı sonrakı peşmançılıq fayda etməz.

Xanım HƏMZƏYEVA

SEVGİSİZ ÖVLAD

Söyləyəcəyimiz əhvalat bəlkə də hər kəsə qəribə gələcək. Kimi anlayacaq, kimi danlayacaq. Amma bu bir həqiqətdir. Və qiyməti oxuyucularımız özləri versin.

Əhvalat valideyn-övlad münasibətinə aiddir. Bir övladın yanğıyla söylədiyi əhvalatdır.

"İki bacı idik. Anam bacımı həmişə əzizləyər, saçını-başını oxşayar, üstünə qışqırsa belə, sonra əzizləyib könlünü alardı və bacımın anama qarşı kini gedərdi. Məni isə heç vaxt əzizləməzdi, üstümə qışqırsa belə, sonradan könlümü almazdı və bu, zamanla daxilimdə anama qarşı kin oyandırmağa başladı. Beləcə, hər ikimiz böyüdük.

Anam xəstələndi. Hər ikimiz ona qulluq edirdik, lakin mən ona qulluq etmək istəmirdim, etsəm də könülsüz edirdim. Anam bizi maddi yöndən hər şeylə təmin etmişdi, lakin əsas olan sevgidən məhrum buraxmışdı. Və bu, zaman keçdikcə anama qarşı kin oyandırmışdı. Bilirəm ki, belə etmək olmaz, üzərimizdə haqqı çoxdur, amma özümlə bacara bilmirəm. Anama və ya bacıma qarşı pislik etmək niyyətim yoxdur və bacıma qarşı içimdə kin və nifrət də yoxdur, sadəcə anama qarşı kin vardır və bu da ona səmimi şəkildə qulluq etməyimə mane olur."

Söz vardır:

*" Məhəbbət və nifrət ikisi birdən eyni anda qəlbdə yerləşə bilməz. Könül boşluq qəbul etmədiyi üçün birinin yoxluğu digərinin varlıq səbəbidir". **("Örnək şəxsiyyət"kitabı)***

Bəli, əziz oxuyucularımız. Ananın taqətdən düşüb övladlarına möhtac olması, sevgisiz böyüyən övladına adi gəlir. Sizlərlə bu əhvalatı bölüşməyimdə məqsədim, valideynlərə bir cümləylə nə demək istədiyimi izah etməkdir.

"Əgər özünüzü lazımsız əşya kimi hiss etmək istəmirsinizsə, övladlarınızı sevgidən məhrum buraxmayın".

Rəbbimiz, hamımızın köməyi olsun və qəlblərimizdə bir-birimizə qarşı kin oyandırmasın!

Dr. Sevinc ASLANOVA

Yetimlər bizim üçün cənnət qapılarının açarıdır.

Cəmiyyətin təməlini ailə, ailəninkini isə fərdlər təşkil edir. Sağlam ruhlu bir cəmiyyət üçün sağlam ruhlu fərdlər yetişdirmək vacibdir. Bu məsələdə isə məsuliyyət birinci növbədə ailəyə düşür. Ailəsində şəfqət görən uşaqlar başqalarına qarşı da mərhəmətli olurlar. Amma təəssüf ki, hər uşaq xoşbəxt isti ailə yuvasına sahib deyil. İstər ata-anası boşanan, istərsə də ata-anasını itirən uşaqlar ailə mühitindən uzaq qalırlar. Burada isə onların məsuliyyəti cəmiyyətə düşür. Bu barədə İslam dini cəmiyyəti nizamlayan hökmlər qoymuşdur.

Yetim qalmış uşaqlara Allah-Təala daima şəfqətli davranmağımızı və onlara haqsızlıq etməməyi əmr edir. *(Duha, 93 /9; Bəqərə, 2/220; Fəcr, 89/17; Nisa,4/2)*

Yetimin mallarına təcavüz edənləri Allah Təala, *Nisa Surəsi 10.* ayədə şiddətlə təhdid edərək: ***"Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər"***,- deyə buyurur.

Yetimlərin ən az digər uşaqlar qədər şəfqət və qayğıya möhtac olduqlarını hər zaman vurğulayan Hz. Məhəmməd (s.ə.s.) məsələyə psixoloji yöndən yanaşmışdır. O buyurmuşdur: *"Başı heç sığallanmamış bir yetimin başını sığallayan kəsə, əlinin dəydiyi tüklər miqdarında savab yazılır". (Əhməd İbn Hanbəl, Müsnəd, V, 250.)* Qatı qəlbli olmasından şikayət edən bir nəfərə Sevgili Peyğəmbərimiz, yoxsulları doyurmasını, yetimləri sevindirməsini, başlarını sığallamasını tövsiyə etmişdir.(Əhməd İbn Hənbəl, Müsnəd, II, 263) Özü yetim olaraq böyüyən Hz. Məhəmməd (s.ə.s.) yetimlərə qarşı şəfqət və mərhəmət göstərən ən gözəl nümunədir. O: "*Müsəlman cəmiyyətində ən xeyirli yuva, içində bir yetimin qaldığı və ona yaxşı davranıldığı yuvadır. Müsəlman cəmiyyətində ən pis ailə yuvası, bir yetimin qaldığı halda ona pis davranılan yuvadır*",- demişdir. *(Buxari, Ədəb, 24, Muslim, Zühd, 42).* Bundan başqa Hz. Peyğəmbər (s.ə.s.) şəhadət barmağı ilə orta barmağını ayırıb göstərərək: "*Mən və yetimin işlərini görən, onların hüquqlarına riayət edən kimsə ilə cənnətdə bax, belə bərabər olacağıq*",- *deyə söyləmişdir".(Buxari, Ədəb, 24, Müslim, Zühd, 42)*

Həm Qurani Kərimdə, həm də Hz. Məhəmmədin davranışlarında yetimlərə xüsusi əhəmiyyət verilmişdir. Biz də öz növbəmizdə yetimi sevməli, onlara şəfqət göstərməli, başlarını sığallamalı, xüsusilə, yetimlər evinə gedib onlara dəstək verməliyik. Beləliklə, həm Allah qatındakı borcumuzu yerinə yetirər, həm də cəmiyyətin nizamının pozulmasının qarşısını almış olarıq. Çünki lazımi qayğını görməyən yetimlər gələcəkdə ruhi halları pozulmuş olaraq qarşımıza çıxa bilərlər. Bundan əlavə, bizim onlara qayğı göstərməyimiz bizim mərhəmət duyğularımızın oyanmasına vəsilə olur. Bu mənada yetimlər bizim üçün rəhmət səbəbi və cənnət qapılarının açarıdır. Yetər ki, biz onları gözümüz kimi qoruyaq!

ƏSRİ- SƏADƏT XANIMLARI

Aynur QULİYEVA

Hz. ÜMMÜ SƏLƏMƏ(r.a.)

Ümmü Sələmə Hz. Halid bin Vəlidin, həm də Peyğəmbərimiz (s.ə.s.)in qohumudur.

Ümmü Sələmə ilk əvvəl Əbu Sələmə Abdullah ilə evlənmişdi. Əbu Sələmə və onun xanımı ilk müsəlmanlardan və Həbəşistana ilk hicrət edənlərdəndir.

Məkkənin zülmündən bezərək hər şeylərini qoyub, Həbəşistana hicrət etmişdilər. Orada rahat və hüzurlu idilər. Könüllərindən keçirdikləri kimi Allaha qulluq edə bilirdilər. Orada bir övladları da dünyaya gəldi.

Bir gün Həbəşistana Məkkədəki müşriklərin hamısının müsəlman olması xəbəri gəldi. Onlar da sonralar yalan çıxan bu xəbərə inanıb Məkkə tərəfə yol aldılar. Halbuki, Məkkə dəyişməmiş, zülm və təzyiq hər gün bir az da artırdı.

Hicrət üçün hazırlıq gördülər. Əşyalarını bir dəvəyə yükləyərək yola düşdülər. Ümmü Sələmə dəvənin üstündə, uşaqları isə onun qucağındaydı. Hələ şəhərdən çıxmamışdılar ki, Ümmü Sələmənin qəbiləsi və qohumlarından bir qrupu qabaqlarını kəsdi. İstəyərsə Əbu Sələmənin Mədinəyə gedə biləcəyini, ancaq Ümmü Sələməni və uşaqlarını buraxmayacaqlarını söylədilər. Uzun mübahisələr heç bir nəticə vermədi. Əbu Sələməni xanımı və uşağından ayırdılar. Əbu Sələmə tək başına Mədinə yollarına düşdü. Ümmü Sələmə və övladı qohumlarının göz həbsində idi. Övladını anasından ayırmışdılar, başqa bir qəbiləyə girov olaraq vermişdilər. Bu vəziyyət bir il davam etdi. Bir gün Muğirə oğullarından biri Ümmü Sələmənin halına acıyıb yanına gəlmişdi, onun vəziyyətini xəbər almışdı. Sonra da Ümmü Sələmənin qohumlarının yanına gedib:

-Bu yazıq qadını ərindən və oğlundan ayırdınız. Nə üçün hələ də onu sərbəst buraxmırsınız? – deyə şikayətlənmişdi.

Bunu gördükdə qohumları insafa gəlib:

-İstəyirsənsə ərinin yanına gedə bilərsən! – deyə Ümmü Sələməyə icazə verdilər.

Nəhayət, Ümmü Sələmə ilə oğlu birbirilərinə qovuşdular. Hər cür təhlükəni gözə alan bu cəsur xanım tək başına Mədinəyə doğru yola çıxmağa qərar verdi.

Ümmü Sələmə Mədinəyə gəlib yerləşdikdən sonra əriylə xoşbəxt bir həyat yaşadı. Burada uşaqlarının tərbiyəsiylə məşğul olmağa və onları yetişdirməyə davam etdi. Əbu Sələmə Hz.

Peyğəmbər (s.ə.s.) ilə Bədir və Uhud müharibələrində iştirak etdi. Uhud müharibəsində müşriklər tərəfindən atılan bir oxla qolundan yaralandı. Bir ay müalicə aldıqdan sonra yaranın qapanıb sağaldığını zənn etdilər. Bu zaman Bəni Əsəd qəbiləsindən Hüveylid oğullarının Mədinəyə hücum xəbəri yayıldı. Peyğəmbər (s.ə.s.) Əbu Sələməni çağırdı və onu sərkərdə (qoşun başçısı) təyin etdi. Ancaq Əbu Sələmənin qapanmış kimi görünən yarası təkrar açılmağa başladı. Ölmək üzərə ikən Peyğəmbər (s.ə.s.) onu ziyarət etmiş və ona dua etmişdi. Peyğəmbər (s.ə.s.) onun vəfatına çox kədərlənmiş və onun cənazə namazını özü qıldırmışdı.

Özünü uşaqlarına həsr edən bu mübarək xanımın halına acıyan Allah Rəsulu (s.ə.s.) Ümmü Sələməyə evlənmək təklifi etdi. O, Peyğəmbər (s.ə.s.)in belə bir təklif etməsinin onun üçün qaçılmaz bir fürsət olduğunu bilirdi. Ancaq Peyğəmbər (s.ə.s.)in gənc və gözəl xanımlarının yanında yaşlı, dul və uşaqlarının olması zamanla onu və Allah Rəsulunu rahatsız edəcəyindən qorxurdu. Buna görə Peyğəmbər (s.ə.s.)dən onu əfv etməsini istəyərək belə bir xəbər göndərdi:

"Mən qısqanc bir xanımam, yaşlıyam və uşaqlarım var. Bundan başqa evlənə bilmək üçün vəlilərim yanımda deyil!.."

Onun bu bəhanələrinə qarşılıq Rəsulullah belə cavab göndərdi:

"Yaşlı olduğunu söyləyirsən, mən səndən daha yaşlıyam. Qısqanclıqdan bəhs edirsən, Allaha dua edərəm, ümid edirəm ki, Allah sənin qısqanclığını aradan götürər. Övladının baxımı isə Allah və Rəsuluna aiddir. Burada olan və olmayan vəlilərinin isə bu evliliyə qarşı çıxacağını heç zənn etmirəm".

Bundan sonra Ümmü Sələmə hicrətin 4-cü ilinin Şəvval ayında Rəsulullah ilə evlənərək etdiyi duanın bərəkətini görmüş və **"möminlərin anası"** olma şərəfinə layiq görülmüşdü.

Ümmü Sələmə (r.a.) hədis rəvayət edən xanım səhabələrdəndir. Hətta Hz. Aişədən sonra Peyğəmbər (s.ə.s.)in digər xanımları içində ən çox hədis rəvayət edən xanımdır. 378 hədis rəvayət etmişdir.

Ümmü Sələmə (r.a.) Peyğəmbər (s.ə.s.)in xanımları arasında ən son vəfat edəndir. Hicrətin 61-ci ilində vəfat etdiyi zaman 84 yaşında idi. Mədinədə Baki qəbiristanlığında dəfn edildi. Ümmü Sələmə (r.a.)nın Kərbəla hadisəsində Hz. Hüseyn və ailəsinin şəhid edildiyi xəbərini alaralmaz kədərindən huşunu itirdiyi və vəfatının səbəbi də bu kədərli hadisənin olduğu bildirilmişdir.

Ümmü Sələmə (r.a.) hədis rəvayət edən xanım səhabələrdəndir. Hətta Hz. Aişədən sonra Peyğəmbər (s.ə.s.)in digər xanımları içində ən çox hədis rəvayət edən xanımdır. 378 hədis rəvayət etmişdir.

Hatice ŞAHİN

AZƏRBAYCAN ÇİNARLARI

İnsan və ağac! Bir-birilərinə bənzəyən iki varlıq. İkisi də fəsillər yaşayar, ikisi də torpaq olar. İnsana bənzəyən ağaclardandır çinar. Fırtınalara, çətinliklərə sinə gərərək illəri qət edər. Dünyanı da insanlar kimi çox sevər, ona görə də torpağa sıx kök atar. Dostluqları da uzun və sağlam olar. Əsrləri geridə qoyan ömrüylə nə qədər sevinclərə, sevgilərə, acılara, ayrılıqlara şahid olar.

Bu çinarlar duruşları, sözləri ilə insanlara istiqamət verir. Cahiliyyə dövründəki Qus bin Səidin qəlbləri cahiliyyə bataqlığında qurumuş insanlara oxuduğu xütbə kimi. Həmin dövrdə yaşayan özlərini cahiliyyə dövrünün aldatmalarından qoruyan Həniflər kimi....

Dövrümüzün çinarlarından birini Azərbaycanda tanımaq qismət oldu. Çətin keçən illərə sinə gərən və bu zaman ərzində imanlarından fətva verməyən, dostluqları çinar qədər sağlam olan insanlardır. Çinar ağacının kölgəsində oturduğunuzu bilmirəm. Əgər oturmamısınızsa, oturmanızı məsləhət görürəm. Çinar, altında kölgələnənlərə fərəh verər, əzəmətli görkəmi ilə yaradanın ululuğunu xatırladar. Bu insanlar da bir çinar kimi sizi fərəhləndirir, sərinlədir, yüngülləşdirir və ibrətamiz həyatlarıyla insanı düşünməyə sövq edir.

Çinar ağacı iri gövdələri ilə neçə-neçə insanı kölgəsində qonaq etmiş və hansı dərdini dinləməmişdir ki.

Çinar uzun ömrü ilə hüznlərə də, sevinclərə də şahid olmuşdur. Eynilə Azərbaycan və Orta Asiya çinarlarının ayrılıqlara, sürgünlərə şahid olması kimi.

Hər canlı fanidir. Bu həqiqəti inanan, inanmayan hər kəs qəbul edər. Çinarın bir sonu olduğu kimi, hər insanın da bu dünyada qoyduğu son bir nöqtə vardır. Pis xüsusiyyətli bir insanın köçmə xəbərini aldıqda ürəyimizin dərinliklərində heç də bir üzüntü duymadığımıza şahid oluruq. Amma yaxşı insanlar köç edərkən qəlbimizi bir kədər bürüyər və: *"Bu dünyadan bir yaxşı insanı da itirdik"*,-deyərik. Gözəl ömür sürüb, yıxılmasıyla bizi üzən çinarlardan biri də Qəbələ şəhərindən Güleyfə xaladır.

Sözlərini ən gözəl şəkildə ədəbiyyata çevirən, 50 illik müəlliməlik həyatıyla mükəmməl insanlar yetişdirən və arxasından da xeyirli bir nəsil buraxan Güleyfə xala...

Güleyfə xala bütün Azərbaycan xalqı kimi qonaqpərvərdir, hələ qapıdan addımını atmadan qollarını açar və

ürəyinin istiliyini içəri girməmişdən hiss edərsiniz. Bir də sizi qucaqlayanda ana dodaqlarından gözəl kəlimələr tökülməsi bir tərəfə dursun, elə o an öz sevginizin və söz ehtiyatınızın azlığından utanarsınız. Güleyfə xala şeirləri, bədii cümlələri söylədikdə, nə danışdığını başa düşməkdə çətinlik çəkdiyimiz gənclik ağlımıza gəlir. Siz bunları düşündüyünüz zaman artıq şeirlər dənizində yolçuluq başlamışdır:

Qapıdan biri gəldi,
Gözümün nuru gəldi.
Bu arxı kim işlədi?
Suyu belə duru gəldi -

deyər və dadına doymadığımız söhbətinə ləzzətli Qəbələ plovu ilə davam edər. Sevincli, kədərli dostluğunu şeirlərlə dilə gətirir:

Dost misli olmayan nadir incidir
İncilər içində ən birincidir.

Bu sözlərlə sevgisini ürəyinizin dərinliklərində hiss edərsiniz. Ziyarət etməyi bir az gecikdirdikdə incikliyini şeirlərlə dilə gətirər:

Yaman soyumusan kənddən, kəsəkdən,
Yadlara çatan bir quru salamın qalıb.
Yadına düşürmü mənim o kənddə
Bir həzin laylamı çalanım qalıb.

Sizin kədərlənməyinizə, könlü razı olmaz, dostun dərd görməsini istəməz. Dərdinizin könlünüzə ağırlıq verməsinə razı olmaz:

Ayağına toxunan daş,
Ürəyimin başına toxunaydı kaş.

Azərbaycanda və Türkiyənin Adana elində yaşlı insanlar sevdiklərinə xitab etdikdə: **"Qadan alım",-** deyərlər. Buradakı **"qada"** dərd mənasına gəlir. Artıq o gözəl insanlar kimi sevdiyinin qadasını alan neçə insan qaldı. Dövr qada alma dövrü deyil, qadasını daha da çoxaltma və bulaşdırma dövrüdür.

Bu dünya ayrılıqların yaşandığı məkandır. Müsəlman tək təsəllini **"Basu badəl məvt"** (ölümdən sonra dirilmə) inanışında tapır. Sevdiklərinizin xatirələri və onlardan geriyə qalan bir neçə şəkli bir az da olsa könlümüzə su çiləyər. Güleyfə xalamız şəkillər haqqında deyir:

Şəkil də şirindir məhəbbət kimi,
Gənclik duyğuları oxunur onda.
Sürdüyün həyatın ləzzəti, dəmi,
İpək parça kimi toxunur onda.

Nə qəmlidir ki, sevdiklərimiz bir-bir ayrılıb getdikdə, əslində bizim də yolçuluğumuzun yaxınlaşdığından xəbər verir. Amma insan sevdiklərini öz əlləriylə qara torpağa verdikdə bir gün özünün də qara torpaq altında olacağını ağlına belə gətirmək istəməz.

"Əcəl gəlmiş cahana, baş ağrısı bəhanə",- demiş atalarımız. Hamımız bir səbəblə gedəcəyik bu fani dünyadan. Mühüm olan necə gedəcəyimizl, arxamızda necə iz buraxa bilməyimizdir. Gözəl bir iz qoyaraq bu dünyadan köçən Güleyfə xalamızın və əvvəl verdiklərimizin ruhlarına fatihələr....

Hamımız bir səbəblə gedəcəyik bu fani dünyadan. Mühüm olan necə gedəcəyimiz, arxamızda necə iz buraxa bilməyimizdir.

CƏMİYYƏTİMİZDƏKİ ƏLSİZ-AYAQSIZLAR:

YETİMLƏR VƏ YOXSULLAR

Susuzluqdan çatlayan bir torpağın bərəkətli yağışlara həsrət qalması kimi cəmiyyətimizdə xidmət edən və diqqətə ən çox ehtiyacı olan təbəqələrin də başında bir qanadı sınmış yetimlər və yoxsullar gəlir. Onlar bizə Allahın əmanətidir.

Bu aləmdə gündüzü qaranlıq
olanları axtar tap ki,
sən öldükdən sonra bu xeyir əməlin
sənə bir şam olsun.

Allah-təala insanı kainatin ən şərəfli məxluqu etmiş, yaratdığı hər şeyi də ona əmanət etmişdir. Ona lütf edilən böyük bir səlahiyyətlə yaşayan insanın Xaliqi qarşısında ciddi bir qulluq şüuru və ehsan duyğusu içində olması zəruridir.

İslamın özü etiqadda tövhid, əməldə isə ədəb, istiqamət və mərhəmətdir. Mərhəmət imanın ilk meyvəsidir. Ondan uzaq bir könül, çox dəhşətli bir fəlakət içindədir. Hər xeyirin əsası olan bismillah və Qurani Kərimin ilk surəsi olan Fatihə Allahın rəhmət və mərhəmətini ifadə edən **"Rəhman"** və **"Rəhim"** adları ilə başlayır. Peyğəmbərlər və vəlilərin həyatları da mərhəmət hekayələri ilə doludur. Çünki imanın ləzzət və gözəlliyinin təzahürü ən çox mərhəmətdə ortaya çıxır. Mərhəmət, səndə olanı, səndən daha çox əlacsız olana verməkdir. Başqa sözlə desək, dünyada vicdan hüzuru və cənnət müjdəsi, axirətdə isə əbədi səadət qazancıdır. Belə ki, bir şəxs Muaz ibn Cəbəlin (r. a.) yanına gələrək:

-*"Mənə nəsihət et!"*- dediyi vaxt, Muaz (r. a.):

-*"Mərhəmət et ki, mən də sənin cənnətə*

girməyinə zamin durum",- buyurmuşdur.

Günümüzdə bir mömini iman vəcdi içində yaşadacaq, nəfsinin istəklərindən qurtararaq ruhunu dərinləşdirəcək və zərifləşdirəcək olan xislət ancaq mərhəmətdir. Mərhəmətin meyvələri isə comərdlik, təvazökarlıq, bağışlamaq, həsəd aparmaqdan uzaqlaşmaq kimi gözəl xislətlərdir. Mərhəmətin səviyyəsini də ən gözəl şəkildə xidmətdəki fədakarlıq və eşq ortaya qoyur. Bir möminin mərhəmət, şəfqət, riqqət və həssaslıqla təmin olunmasının ən qısa yolu mal və canla edilən fədakarlıqdan keçir. Belə ki, qəlbinin sıxıntısından şikayət edən bir səhabəyə Peyğəmbər (s. ə. s.):

"Əgər qəlbinin yumşalmasını istəyirsənsə, yoxsulu yedir, yetimin başını sığalla!"-buyurmuşdur. **(Əhməd, II, 263, 387)**

Şeyx Sədi bu barədə belə bir nəsihət edir:

"Xidmətdəki fəzilət özünü güclü-qüvvətli və sağlıqlı gördüyün vaxt şükür ifadəsi olaraq zəiflərin yükünü daşımaqdır".

Susuzluqdan çatlayan bir torpağın bərəkətli yağışlara həsrət qalması kimi cəmiyyətimizdə xidmət edən və diqqətə ən çox ehtiyacı olan təbəqələrin də başında bir qanadı sınmış yetimlər və yoxsullar gəlir. Onlar bizə Allahın əmanətidir. Allah-təala bir çox ayədə, Hz. Peyğəmbər (s.ə.s.) də bir çox hədisi-şərifdə möhtacı olanlara xidməti təşfiq edərək yetim və yoxsullara kömək etməyin zəruri olduğunu bildirmişdir.

Ayədə belə buyurulur:

"Yetimlərin mallarını (həddi-büluğa çatdıqda) özlərinə verin və pisi (haramı) yaxşı ilə (halalla) dəyişdirməyin! (Yetimlərin malı sizə haram, öz malınız isə halal olduğu halda, onları bir-birilə dəyişməyin!) Onların mallarını öz mallarınıza qatıb yeməyin! Həqiqətən, bu böyük günahdır". (Nisa, 2)

"(Ya Rəsulum!) Səndən (Allah yolunda) nə verəcəkləri haqqında soruşanlara söylə: "(Malınızdan) verəcəyiniz şey ata-anaya, (yoxsul) qohumlara, yetimlərə, miskinlərə və (pulu qurtaran) müsafirə (yolçulara) məxsusdur". Şübhəsiz ki, Allah etdiyiniz xeyirli işi biləndir". (Bəqərə, 215)

"Dünya və axirət (işləri) barəsində. (Ya Rəsulum!) Səndən yetimlər haqqında sual edənlərə söylə: "Onlar üçün (onların malını qorumaq və güzəranlarını) yaxşılaşdırmaq xeyirlidir (nəcib əməldir). Əgər onlarla birlikdə yaşayırsınızsa, onlar sizin qardaşlarınızdır". Allah (islah) edənləri də, fəsad salanları da tanıyır. Əgər Allah istəsəydi, sizi, əlbəttə, əziyyətə salardı. Həqiqətən, Allah yenilməz qüvvət, hikmət sahibidir!" (Bəqərə, 220)

"Yetimləri nikah yaşına çatıncaya qədər sınayın. Əgər ağla dolduqlarını (həddi-büluğa çatdıqlarını) hiss etsəniz, mallarını özlərinə qaytarın. Böyüyəcəklər (böyüyən kimi mallarına sahib olacaqlar) deyə, o malları israf

edib tələm-tələsik yeməyin. Zəngin olan (qəyyum) o mala toxunmasın, kasıb isə qəbul olunmuş qayda üzrə (ehtiyacı olduğu qədər, çəkdiyi zəhmətin əvəzi miqdarında) yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman yanlarında şahid tutun! Haqq-hesab çəkməyə Allah kifayət edər!" (Nisa,6)

"Malın (vərəsələr arasında) bölünməsi zamanı varis olmayan qohumlar, yetimlər və yoxsullar da orada iştirak edərlərsə, onlara da o maldan bir şey verin və gözəl sözlərlə könüllərini alın!" (Nisa, 8)

Allah Təalanın "Yetimin malına, xeyirxah məqsəd (onu qoruyub saxlamaq, çoxaltmaq) istisna olmaqla, həddi-büluğa çatana qədər yaxın düşməyin" (Ənam, 152) *və* ***"Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (qiyamətdə) alovlu Cəhənnəmə girəcəklər" (Nisa, 10)*** ayələri nazil olduğu vaxt yanlarında yetim saxlayan səhabələr dərhal gedib onların yeyəcəyini və içəcəyini özlərininkindən ayırdılar. Yetimə aid yeyəcək və içəcəklərdən bir şey artıq qalsa, ona toxunmur, yetim onu yeyənə və ya qoxuyub xarab olana qədər saxlayırdılar. ***(Əbu Davud, Vəsaya, 7/2871; Nəsai, Vəsaya, 11)***

İbn Abbas (r.a.) belə rəvayət edir:

"Əli (r.a.) gecənin birində bir miqdar arpa müqabilində bir xurma ağacına su verdi. Səhər olunca arpasını alaraq evinə gəldi. Gətirdiyi arpanın üçdə birini üyüdüb ***"hazıra"*** *deyilən bir yemək bişirdilər. Yemək bişincə bir yoxsul gəldi və yemək istədi. Onlar da bişən yeməyi olduğu kimi o yoxsula verdilər. Sonra ikinci üçdə birini üyüdüb yemək bişirdilər. Yemək bişincə bu dəfə də bir yetim gəlib sədəqə istədi. Bu yeməyi də o yetimə verdilər və qalan axırıncı üçdə birini üyüdüb ondan təkrar yemək hazırladılar. Elə yemək bişmişdi ki, müşriklərdən bir əsir gəldi və yemək istədi. Axırıncı yeməklərini də ona verdilər və o günü onlar ac keçirdilər. Digər bir rəvayətə görə, üç gün arxa-arxaya iftarlarını yoxsula, yetimə və əsirə verərək su ilə iftar etdilər".*

Məhz bundan sonra ayət nazil oldu:

"Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya: Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik. Həqiqətən, biz Rəbbimizdən, çox sərt (müdhiş), çətin gündən (üzlərin dəhşətdən eybəcər kökə düşəcəyi, çöhrələrin tutulub qaralacağı qiyamət günündən) qorxuruq!" Allah da onları o günün şərindən qoruyacaq, onlara gözəllik və sevinc bəxş edəcəkdir (üzlərinə təravət verəcək, qəlblərini sevindirəcəkdir)". ***(İnsan,***

8-11) (Vahidi, s. 470; Zəməxşəri, VI, 191-192; Razi, XXX, 244)

Bu ayələrdə Allah-Təala yoxsul, yetim və əsirə edilən köməklik və fədakarlığın müqabilində Cənnətdə verəcəyi mükafatı ilə onları müjdələyir.

Nümunə olaraq göstərilən ayələrdə könüldən və səmimi infaqdakı bəzi nöqtələri belə ifadə edə bilərik:

Mömin özü ehtiyac içində olsa belə qardaşını özündən üstün görməli, cəmiyyətdəki kimsəsizlərin iztirabını könlündə hiss etməlidir. Onları tanımalı, dərdləri ilə dərdləşməli, ehtiyaclarını həll etməyi özləri üçün əsl xarakter halına gətirməlidir.

Allah-təala:

"...Sən isə onları üzlərindən tanıyarsan..."(Bəqərə, 273) buyurur. Cəmiyyətdəki iztirab çəkənləri tanımaq bizim qəlb həssaslığımızın və dərinliyimizin bir əlamətidir.

Mömin özü ehtiyac içində olsa belə qardaşını özündən üstün görməli, cəmiyyətdəki kimsəsizlərin iztirabını könlündə hiss etməlidir. Onları tanımalı, dərdləri ilə dərdləşməli, ehtiyaclarını həll etməyi özləri üçün əsl xarakter halına gətirməlidir.

Sədi Şirazi Allah dostlarının yoxsul və yetimlərlə bərabərliyini, bizim onları necə araşdırıb tapacağımızı və xidmət edəcəyimizi bu misalla çox gözəl dilə gətirir:

"Haqq dostları çox adamın getmədiyi dükanlardan alış-veriş edərlər..."

Digər tərəfdən verilən sədəqələr də fani və dünyəvi mənfəətlər üçün deyil, sırf Allah rizası üçün olmalıdır. Ehtiyacı olana infaq edərkən, eyni zamanda onu minnət və möhnət altında qoymamaq lazımdır. Belə ki, hədisi-şəriflərdə buyurulmuşdur:

"Yoxsulları himayə edin. Aranızdakı zəiflər sayəsində Allahdan yardım görüb riziqləndiyinizdən şübhəniz olmasın". **(Əbu Davud, Cihad, 70/2594;Əhməd, V, 198)**

"Allah bu ümmətə aralarındakı zəiflərin duası, ibadəti və ixlasına görə yardım edər". ***(Nəsai, Cihad, 43)***

Dövrümüz maddi çətinliklərin yüksək səviyyəyə çatdığı bir dövr olduğundan, normal dövrlərin öhdəliyi olan zəkatla kifayətlənməməli, bundan daha çoxunu etməliyik. Bizə əmr edilən 1/40 zəkat və kənd təsərrüfatı məhsullarının 1/10-i, infaqdakı ən az səviyyəsi və Allah-Təalaya məhəbbət və yaxınlığı dərəcəsində bu miqdarın artması zəruridir.

Çünki ayədə belə buyurulur:

"(Allah yolunda) nəyi paylamalı olduqlarını soruşanlara isə de: "Ehtiyacınızdan artıq qalanını (möhtaclara paylayın)!"

(Bəqərə, 219)

Demək ki, Rəbbimiz bizdən comərd, qədir-qiymət bilən və zəngin könüllü olmamızı istəyir. Allah Rəsulu (s.ə.s.):

"Comərdin səhvinə baxmayın, çünki o büdrəyəndə Allah Təala onun əlindən tutar", – buyurmuşdur. **(Heysəmi, VI, 282)**

Mövlana (quddusə sirruh) da zəngin könüllərin fəzilətini belə ifadə edir:

"Yoxsullar ilahi mərhəmətin və Rəbbani comərdliyin güzgüsüdürlər. Haqla olanlar və Haqda fani olanlar daim comərdlik halındadırlar".

Rəsulullah (s.ə.s.):

"Sərvət bir müsəlman üçün ən gözəl dostdur. Kifayətdir ki, o sərvətindən yoxsula, yetimə və yolçuya vermiş olsun!" – buyurmuşdur. **(Əhməd III, 21)**

Sərvətin haqqını vermək, onu qadağan edilən yerlərə xərcləməmək iki böyük təhlükə olan israf və xəsislikdən uzaqlaşmaqla mümkündür. Həqiqi zənginlik səadəti məhz məhrumları, tənhaları və yetimləri düşünmək, onları qorumaqla başlayar.

Yoxsulları unudan cəmiyyətlər malın şükründən uzaq olduqları üçün səadət tapmaz və vicdan hüzuruna qovuşmazlar.

Bəlkə bu gün cəmiyyətimizdəki hüzursuzluğun ən böyük səbəblərindən biri, önümüzdəki faciə səhnələrinə baxıb onları aradan qaldırmaq üçün kifayət qədər çarə axtarmamağımızdır.

Həzrəti Peyğəmbər (s.ə.s.):

"Mən və yetimi himayə edən şəxs cənnətdə bu şəkildə bir yerdə olacağam",- buyurmuş və bunu şəhadət barmağı ilə orta barmağını bir az aralayaraq göstərmişdir. **(Buxari, Talaq, 14,25; Ədəb, 24)**

Digər bir hədisi-şərifdə isə belə deyilir:

"Mən bir möminə öz nəfsindən daha irəli və daha yaxınam. Bir şəxs ölərkən mal-dövlət qoyarsa, o mal-dövlət öz yaxınlarına aiddir. Amma borc və ya yetimlər qalsa, o borc mənə aiddir, çünki yetimlərə baxmaq mənim vəzifəmdir". **(Müslüm, Cümə, 43)**

Əşya bir əmanət olduğu kimi, insan da bir əmanətdir. Hətta bu dünyaya aid hər şey əmanətdir. Əmanətin yerinə yetirilməsi isə rəhmətə səbəb olar. İnfaq və yardım yalnız maddi olaraq edilməz. Rəbbin ehsan etdiyi hər şeydən infaq edilməlidir. Müsəlman özünü cəmiyyətdən məsul hiss edərək malını, zamanını, bildiyini, mərhəmətini, şəfqətini ehtiyacı olanlara infaq etməli, bütün imkanlarını səfərbər edərək insanlığın iztirabını dindirmək üçün məşğul olmalıdır. Həzrət Ömərin kürəyində un çuvalları daşıyaraq möhtac olanları axtarması, Dəclə sahilində zərər görən qoyundan özünün məsuliyyət daşıdığını hiss etməsi unudulmamalıdır.

Əşya bir əmanət olduğu kimi, insan da bir əmanətdir. Hətta bu dünyaya aid hər şey əmanətdir. Əmanətin yerinə yetirilməsi isə rəhmətə səbəb olar. İnfaq və yardım yalnız maddi olaraq edilməz.

Bu çətin günlərdə, hidayət yolunu axtaranlara, zəiflərə, yetimlərə və kimsəsizlərə mərhəmət dolu bir könüllə mərhəmət əlini uzatmaq, xüsusilə uşaq evlərindəki övladlarımıza mənəvi dayaq olmaq ilahi rizaya səbəb olacaq ən əhəmiyyətli xidmətlərdəndir.

İmamı Əzəm həzrətlərinin eyni ilə səhabələr kimi, özünü cəmiyyətdən məsul hiss etməsi uca İslam şəxsiyyətini sərgilədiyi bu misalla bizim üçün gözəl bir nümunədir.

İmam Əzəm həzrətlərinin qonşularından biri əyyaş bir gənc idi. Bu gənc səhərdən axşama qədər içər, gecələri dayanmadan bağırar, söyüşlər söyərək ətrafındakıları dəhşətli dərəcədə narahat edərdi.

Bir gecə gəncin səsi kəsilir, Əbu Hənifə həzrətləri sübh vaxtı gedib o gəncə bir şey olub-olmadığına baxır. Dostları içkidən ötrü dava saldığı üçün zindana düşdüyünü deyirlər. Əbu Hənifə həzrətləri bu hala çox üzülür. Zindana gedib idarəçilərdən onu azad etmələrini xahiş edir. Onlar ancaq zəmanətlə sərbəst buraxa biləcəklərini dedikləri vaxt, o özü zamin olur və sərxoş qonşusunu zindandan qurtarır. Vəziyyəti öyrənən gənc dərhal Əbu Hənifənin yanına gəlib peşmançılıq içində göz yaşları tökməyə başlayır. Tövbə edərək bir daha içki içməyəcəyini deyir. Bundan sonra ona layiq bir qonşu və tələbə olacağına söz verir. Böyük İmam gəncə şəfqətlə baxaraq kədərli bir səslə:

"Oğlum, əslində, səni biz ziyan etdik! Sənin ürəyinə yol tapa bilmədik. Əslində, sən bizə haqqını halal et!"- deyə cavab verir.

İmam Əzəm həzrətlərinin bu şüurunu ən gözəl şəkildə qavrayaraq həyatımıza tətbiq etməyə necə də ehtiyacımız var. Çünki küçələrə atılmış sahibsiz uşaqlar, uyuşdurucuya aludə olmuş gənclər və yetimxanadakı kimsəsizlər də bizim övladlarımızdır. Həddi-büluğ yaşına çatmamış bu uşaqlar gözümüz görə-görə, yavaş-yavaş cəmiyyətin qaranlıqlarına atılırlar. Nəfəs aldıqları zəhərlə ciyərlərini yandırır, beyinlərini və qəlblərini məhv edirlər. Sıradan çıxmış hallarıyla cəmiyyətə düşmən olaraq qanunsuz qrupların üzvləri halına gəlirlər. Onlara din, əxlaq və vətənsevərlik hisslərini verə bilmədiyimiz üçün özümüzün vicdanən nə qədər məsuliyyət daşıdığımızı bilirikmi?

Xülasə, uca duyğularla incə ruhlu möminlərin yardıma möhtac, kimsəsiz və himayəsiz yetimlərin yanında olmaları vacibdir. Möminin ehtiyac sahiblərini arayıb tapması, onlarla maddi və mənəvi olaraq maraqlanması, xüsusilə onlara İslamın gülər üzünü göstərməsi lazımdır. Yetimi və möhtacı axtarıb tapan, onların başını sığallayan Həzrət Peyğəmbəri (s.ə.s.) düşünməlidir. Çünki aləmlərin Sultanı (s.ə.s.) da bir yetim idi.

Ya Rəbb! Qəlblərimizi Xaliqdən ötrü məxluqata şəfqət, mərhəmət və arxa olmağın mənbəyi et! Günah və xətalarımızı gözəlliklərlə əvəz et! Zamanımızın nəzakəti səbəbiylə Haqqa və xeyrə dəvəti, məzlumlara, çarəsizlərə xidməti boynumuza düşdüyü qədər yerinə yetirərək ilahi hüzurda bağışlanmağı hamımıza qismət et!

Amin!..

Ceyhunə QASIMOVA

İMANIN NURU

İman həm nurdur, həm də qüvvətdir. Nur zülmətin ziddidir. Nur deyildiyi zaman işıq, zülmət deyildiyi zaman isə qaranlıq ağlımıza gəlir. Bu məna səhv deyil, amma əskikdir. Maddi aləmi seyr etməyimizə kömək edən işığa **"Nur"**, bunu əngəlləyən qaranlığa **"zülmət"** dediyimiz kimi, məna aləmində də nur və zülməti eyni şəkildə ələ ala bilərik.

İman bir nurdur; göz bizi maddi aləmə qovuşdurduğu kimi, imanımızdan gələn **"Nur"** da, bizi məna aləminə qovuşdurur, qəlbimizin və vicdanımızın dərinliklərini bu nur ilə oxuyuruq.

Gözdən məhrum olan bir iman bilavasitə göz nurundan da məhrumdur, onun bütün dünyası qaranlıqdadır. İman nurundan məhrum olan şirk və küfr edən kimsələrin halı da belədir. Zülmətdədirlər, kainatı seyr edər, amma yaradıcısını tapa bilməzlər.

Cahilliyin özü də ayrı bir korluqdur, ayrı bir zülmətdir. Cahil insan qarşısındakı ən gözəl sənət əsərinin sadəcə maddəsinə baxar, ona qiymət verər. Cahil və imanlı insanın fərqi tamamən başqadır. Cahil maddələrdə boğularkən, imanlı insan məna aləminə qərq olur, hər bir varlıqda Allahın (c.c.) varlığını müşahidə edib heyran qalır.

Varlıq aləminin hər bir bölməsi Allahın (c.c.) isimlərindən nur alır, aydınlanır. İnsanlar, mələklər və cinlər də bu varlıqları dərk edirlər. Onların üzərindəki parıldayan nurları imanın pəncərəsindən görürlər. Qəlb Allahın (c.c.) aynasıdır. İnsan bu aynada Allahı (c.c.) görmək istədikdə artıq hər bir varlıq onun üçün ayrı bir təfəkkür xəzinəsi olur. O ayna ilə baxılan hər bir varlıqda o varlığın vücudunu, maddəsini yox,

Allah (c.c.) o varlığın üzərindəki nurunu və elmini görür, aynadakı nurun əks etməsiylə bütün qəlb dünyası, ruhu aydınlığa qovuşur.

Allahın (c.c.) bütün isimləri nurludur, hər bir varlığın, hər bir yaradılışın üzərində parlanır.

"Xaliq" isminin təcəlli etməsiylə hər bir varlıq zülmət kimi olan yoxluqdan qurtulur, varlığın nuruna qovuşur.

"Həyat" sahibi olmaq **"varlıq",** olmamaq isə **"yoxluqdur".** Hər həyat sahibi varlıqda, **"Muhyi"** ismini təzahür edər və həyatın nuru parlayar.

"Ədalət" nurdur, zülm isə zülmətdir. **"Ədl"** isminin təcəllisi ilə kainatdakı zülmlər aradan qalxır, ədalətin və hikmətin nurları parlamağa başlayır.

"Hikmət" bir nurdur, boş işlər isə bir zülmətdir. Allahın (c.c.) **"Hakim"** isminin təcəllisi ilə hər yerdə zülmət kimi olan, əbəs kimi görünən işlər yox olur, hikmətin nuru hər yerdə parlamağa başlayır.

Bütün sifətləri nurani olan Allaha (c.c.) iman etməklə insan baxdığı hər yerdə onun adları və işıqlarını görməyə başlayır. Daxili dünyası bu işıqla aydınlanır. Hər bir varlıqda **"Allah"**ın (c.c.) möhrünü bu nurla oxumağa başlayır.

Qəlbi imanla nurlanan insanın əxlaqı Qurandan gələn nurla işıqlanar. Günəşin planetlər ətrafında pərvanə etdiyi kimi, bu əxlaqın sahibi insanın ətrafındakılar da onu pərvanə kimi dövrəyə alar.

Bildiyimiz kimi, imanın 6 əsası vardır ki, bunun özü də insan üçün xüsusi bir nurdur və zülməti ortadan qaldırar.

Məsələn: İnsan mələklərə inanmaqla yalnızlıqdan qurtular, zülmətli yerlərdə, yalnızlıq anlarında nura qərq olar.

İnsan peyğəmbərlərə inanmaqla rəhbərsizliyin gətirdiyi zülmətdən qurtulub aydınlığa qovuşar.

İnsan qədərə inanmaqla hadisələrin gətirdiyi zülmətdən, əzabdan, kədərdən qurtular, başına gələn hər hadisəyə nurlu bir imtahan olaraq baxar. Keçmişdə itirdiklərinə kədərlənməz.

İnsan axirətə inanmaqla gələcəyini işıqlandırar. Bir dəqiqə sonrasını bilməyən insan üçün qəbir beşik kimi görünər, məhşəri görər, cənnət və cəhənnəmi görər, üfüqü genişləndikcə genişlənər. Fani dünyaya aid olan şeylər üçün çalışmağın, kədərlənməyin nə qədər mənasız olduğunu dərk edər. Qısaca dünyanı qəlbindən qovar.

Beləcə, imanın nuru ilə insan nurlanar, kainat sarayında hər bir şey Rəbbimizə açılan nurlu bir pəncərə olar. Hər şeydə Rəbbimizin nuru parıldadığına görə nura qərq olar. Dilindən tökülən hər bir kəlimə **"Nur"**u təsbih edər, onun nuruna bürünər.

Bəxtiyar insan axirətdə bu nurla həşr olar. Bu yerdə hikmət əhli böyüklərimiz nə gözəl söyləmişdir:

İman insanı insan edər,
Bəlkə də sultan edər.
Küfr insanı aciz bir canavar edər.

İnsanlıq iman ilə insanlıq səviyyəsinə qalxar.

Qəlbi imanla nurlanan insanın əxlaqı Qurandan gələn nurla işıqlanar. Günəşin planetlər ətrafında pərvanə etdiyi kimi, bu əxlaqın sahibi insanın ətrafındakılar da onu pərvanə kimi dövrəyə alar.

Qətibə VAQİFQIZI

CANIM BAKI, QANIM BAKI...

Bu sayımızdan başlayaraq biz Vətənimizin tarixi haqqında maraqlı məlumatlarla zəngin olan silsilə yazılar dərc edəcəyik. Məqsədimiz Azərbaycanımızın hər bir bölgəsinin tarixini, coğrafi-fiziki şəraitini, iqlimini, tarixi memarlıq abidələrini, sənaye və təsərrüfatını, əhalisinin sayını və məşğuliyyətini işıqlandırmaqdır.

Bu günkü yazımız, əlbəttə ki, müstəqil dövlətimizin paytaxtı, əsrlərlə şahid olduğu hadisələr işığında milli tariximizin canlı salnaməsinə çevrilən qədim və həmişəcavan Bakımızdır.

Bakı Abşeron yarımadasında yerləşir. Arxeoloji tapıntılar buranın qədim yaşayış məskəni olduğunu sübut edir. Pirallahı, Zığ gölü ətrafı, Şüvəlan, Mərdəkan, Binəqədi, Pirşağı, Əmircan, Ramana və s. yerlərdə e.ə III-I əsrlərə aid materiallar tapılmışdır. Bakının salındığı tarix dəqiq məlum deyil. Bakıda tapılmış V-VII əsrlərə aid Sasani dəfinəsi Bakının yaşayış məskəni kimi qədimliyini sübut edən faktlardandır. Bakının çox əlverişli fiziki-coğrafi mövqeyi, qərbdən şərqə gedən ən mühüm ticarət yollarının, əsasən də məşhur ipək yolunun kəsişməsində yerləşməsi, iqlimi, yerüstü və yeraltı təbii sərvətləri lap qədim zamanlardan burada insanların məskunlaşmasına səbəb olmuşdur. Bakı ərazisində yaşayışın olması haqqında ən ilkin məlumatlar bizim eranın II əsrinə aiddir. V-VI əsr mənbələrində Bakı Bağavan və Atəşi-Baquan olaraq adlandırılmışdır. Ərəb mənbələrində Baküyə, Bakuh, Baku, rus məxəzlərində Baka, Səfəvilər dövründə Badkubə kimi qeyd olunurdu. Bakı XII əsrdə Şirvanşahlar dövlətinin, XVI əsrdə Səfəvilər dövlətinin, XVII əsrdə Osmanlı İmperiyasının, XVIII əsrdə isə Bakı xanlığının əsas şəhərlərindən biri olmuşdur.

Bakı Orta əsr Şərqinin ən iri şəhərlərindən biri olmuşdur. Şəhərin iqtisadiyyatında neft və duz əsas yer tuturdu. Ərəb səyyahı Abu Düləfin (X əsr) məlumatına görə Bakıdakı iki neft mədənlərindən ildə təqribən 720 min dirhəm gəlir götürülürdü. Feodal münasibətlərinin ticarət və sənətkarlığın inkişafı şəhərin tərəqqi etməsinə təsir edirdi. Beynəlxalq ticarət yollarının

kəsişməsində yerləşən Bakı şərq və qərb mədəniyyətinin ən mütərəqqi xüsusiyyətlərini özündə cəmləşdirmiş, dünya ticarətində mühüm əhəmiyyət kəsb edirdi. X əsrdən etibarən liman şəhəri kimi məşhur olan Bakı XI əsrin sonu, XIII əsrin əvvəllərində tərəqqi dövrü keçirirdi. 1191-ci ildə Qızıl Arslan Şamaxını tutduqda müvəqqəti olaraq paytaxtı Bakıya köçürən Şirvanşah I Axsitan şəhərin möhkəmlənməsinə xüsusi diqqət verirdi. XII əsrdə Bakı ikicərgəli qala divarı və xəndəklə əhatə olundu. Məşhur Qız Qalası da şəhərin müdafiə sisteminə daxil idi. 1232-1235-ci illərdə Bakını dəniz tərəfdən qorumaq məqsədi ilə buxta daxilində möhkəmləndirilmiş qala tikildi, Xəzər dənizində güclü donanma yaradıldı.

XIII əsrin 30-cu illərində monqolların hücumu nəticəsində uzunmüddətli mühasirədən sonra şəhər alındı, uzunmüddətli müharibə Bakıda neft çıxarılması və ticarətin tənəzzülünə səbəb oldu. XIV əsrin ortalarına doğru Bakıda ticarət (xüsusilə dəniz ticarəti) yenidən canlanmağa başladı. XIV əsrin 2-ci yarısında Bakının iqtisadi rolunun artması ilə əlaqədar olaraq Xəzər dənizi bəzən Bakı dənizi də adlanırdı. (1375-ci ildə katalan dilində hazırlanmış atlasda belə göstərilmişdir.) Bakıdakı Buxara karvansarası, Qız Qalası yaxınlığında Multanı (hind) karvansarası (XV-XVI) və s. şərq ölkələri ilə geniş əlaqələrin mövcudluğuna dəlalət edir. Şirvanşah I Xəlilullahın dövründə (1417-1426) Bakıda aparılan mühüm tikinti işləri nəticəsində Şirvanşahlar sarayı kompleksi yaradıldı. Bakıda ticarət, sənətkarlıq inkişaf edir, iqtisadi və mədəni həyat yüksəlirdi. Əhali sənətkarlıq, ticarət, bağçılıq, bostançılıq, üzümçülük, əkinçilik, neftçıxarma, balıqçılıq və s. ilə

məşğul olur, ən qiymətli ədviyyat olan zəfəran əkilirdi.

XVII əsrin 40-cı illərində mərkəzi hakimiyyətin güclənməsi, təsərrüfatın inkişafına mane olan feodal çəkişmələrinin, dağıdıcı müharibələrin bitməsi şəhərin hər cəhətdən tərəqqisinə təkan verdi. Bu dövrdə Bakıda mis pullar buraxılırdı. Əhalinin xeyli hissəsi xalçaçılıqla məşğul olurdu. XVI-XVIII əsrlərə aid tarixi abidələr bu dövrdə memarlıq, həkkaklıq, nəqqaşlıq sənətlərinin də inkişaf etdiyini göstərir. XVIII əsrin ortalarında Azərbaycanda bir sıra xanlıqlar, o cümlədən Bakı xanlığı yarandı. Bakının zəngin təbii sərvətləri, habelə mühüm hərbi strateji əhəmiyyəti XVIII-ci əsrin əvvəllərindən etibarən Rusiyanın diqqətini cəlb edirdi. 1805-ci ildə general P.D.Sisianovun başçılığı ilə rus qoşunları Bakıya yaxınlaşdı. Şəhərin təslim olması üçün Bakı xanı Hüseynqulu xanla danışıqlar zamanı Sisianov öldürüldü. Lakin bütün səylərə və güclü müqavimətlərə baxmayaraq 1806-cı il oktyabrın 6-da Bakı Rusiyaya birləşdirildi. XIX əsrin əvvələrində Bakıda 500 ev, 3000 əhali var idi...

Mətanət KƏRİMOVA

İNSAN ÖMRÜ

Allah tərəfindən yaradılan bütün canlı varlıqların əşrəfi sayılan insan həyata bir dəfə gəlir.

İnsan ömrü çox qısadır. Bu qısa həyat yolunu elə yaşamaq lazımdır ki, Rəbbimizin hüzurunda insanlıq vəzifəmizi yerinə yetirmiş olaq.

İnsan yaşadığı ömür içərisində hər an məşğuldur, hərəkət halındadır. Əlbəttə ki, hər insanın səhvi ola bilər, əsas olan odur ki, səhvlərini düzəldə bilsin və bir daha həmin səhvləri etməsin.

Hər zaman bu həyatda var olduğumuz üçün, canımızın sağlam olduğu üçün Allaha şükür etməliyik. İnsan xeyir anında da, şər anında da şükür etməyi bacarmalıdır. Çünki qəza və qədərin betərindən betəri də var. Allahın bizə bəxş etdiyi bu həyatı da, Allahın bizi istiqamətləndirdiyi şəkildə yaşasaq, həm Allahın hüzurunda, həm də ən azından öz vicdanımız qarşısında ürəyimiz rahat olar.

İnsan həyatındakı ən lazımlı məsələlərdən biri də zamandır. İnsan yaşadığı bu qısa ömür yolunda zaman israfına yol verməməlidir. Deyirlər ki: *"İnsan ömrünün yarısı boş keçir, digər yarısı da bu boş keçən zamana heyfislənməklə keçir"*. Beləcə israf edilmiş bir həyat ortaya çıxır. **"Kaş ki"** deməklə ömür keçirməkdənsə, bu günü geri qalan ömrün ilk günü bilib, zamanımızı çox yaxşı dəyərləndirməyimiz lazımdır. Biz bilməliyik ki, həyat bizə bir dəfə verilir, heç bir şey bir daha geri qayıtmayacaq. Elə buna görə də ömür kitabının hər bir səhifəsini gərək elə yaşayasan ki, bu kitabı vərəqləyəndə ancaq sevinc hissi keçirəsən.

Zaman nə borc alınır, nə borc verilir. Hər şeyi almaq mümkündür, lakin keçən zamanı əsla geri qaytarmaq mümkün deyil. Zamanın qiymətini bilib, dəyərləndirmək lazımdır. Belə ki, bir hədisi-şərifdə belə

deyilir:

"Beş şey gəlmədən qabaq, beş şeyi qənimət bil:

İxtiyarlığından əvvəl gəncliyini, xəstələnmədən əvvəl səhhətini, fağırlığından əvvəl zənginliyini, məşğul zamanlarından əvvəl boş vaxtlarını, ölümündən əvvəl həyatını".

Allah insanı dünya üçün yox, dünyanı insan üçün yaradıb. İnsanı isə özü üçün yaradıb. Biz də Haqqın buyurduğu kimi yaşasaq, bizə verilən bu saysız-hesabsız nemətlərdən düzgün istifadə etsək hər bir işimiz yolunda gedər. Yox əgər zamanı israf etsək, bir də baxarıq ki, saç-saqqalımız ağarıb, artıq dünyanın son, axirətin isə ilk mənzilindəyik.

Möminə qəflət yaraşmaz! Bu fani həyatda elə yaşamalısan ki, bu dünyadan köç etdikdə səndən yadigar yaxşı ad qalsın.

Xoşdur yaxşı adla ölsəm mən əgər,
Mənə ad qalacaq öləcək bədən.

"Hər kəs bədəninin ölümündən qorxur. Qəlbinin ölümünü düşünən isə yoxdur! Əsil qorxulacaq olan mənəvi qəlbin ölməsidir". (Hz. Mövlana)

İnsan nəfsini daim nəzarətdə saxlamalıdır, dünyanın ötəri, aldadıcı bərbəzəyinə meyl salmayıb gözü tox bir həyat yaşamalı, saleh əməllər görməlidir. Möminə yaraşan pisliyə belə yaxşılıqla cavab verməkdir. Bu davranışın sonunda qazanan hər zaman yaxşılıq edəndir. Kim olursa olsun insanların ayıblarını örtmək çox gözəl davranışdır. Peyğəmbərimiz (s.ə.s.) belə buyurmuşdur:

"Hər hansı bir qul dünyada digər bir qulun ayıbını örtərsə, qiyamət günündə Allah da onun ayıbını örtər".

Bizə bəxş olunan bu qısa həyat yolunu elə yaşayaq ki, başqalarını incitməyək, düzgün olaq, az danışaq, çox iş görək, lazımsız işlərə qarışmayaq, dara düşdükdə üsyan etməyək, hər zaman şükür edək.

İnsan bir dəqiqədən sonra başına nə gələcək bilmir. Onun üçün yaşadığı müddətdə xeyir işlər görməli, ehtiyacı olanlara öz gücü daxilində yardım etməlidir. Unutmamalıdır ki, bu savab işlərinə görə axirətdə, etdiklərindən də artığı ilə mükafatlandırılacaq. Çünki Allah rizası üçün edilən hər davranış bir ibadətdir.

Hər kəsin, hər şeyin ona möhtac olduğu, lakin özünün heç bir şeyə ehtiyacı olmayan Allahım! Bizi doğru yola yönəlt, günah və xətalarımızı gözəlliklə əvəz et, sevdiyin qullarından et, ilahi hüzurda bağışlanmağı hamımıza qismət et!

Amin!..

İnsan nəfsini daim nəzarətdə saxlamalıdır, dünyanın ötəri, aldadıcı bər-bəzəyinə meyl salmayıb gözü tox bir həyat yaşamalı, saleh əməllər görməlidir.

Xəyalə ABDULAZİM

İLK BAHARA HƏSRƏT QIŞ ÇİÇƏYİNİN SEVGİ MESAJI

Məni sevən sıxıntını özünə örtü etsin buyurmuşdun. Səni sevmək… Səni sevərək Hz.Əbu Bəkir (r.a.), Hz. Əli (r.a.), Hz. Bilal (r.a.), Hz.Osman (r.a), Hz.Ömər (r.a.), Hz.Musab (r.a.), Hz.Ammar (r.a.), Hz.Sümeyyə (r.a.), Hz. Rümeysa (r.a.), Hz.Zeyd (r.a.), Hz.Aişə (r.a.), Hz. Xədicə (r.a), Hz.Ümmü Eymən (r.a.), Hz.Fatimə (r.a.) olmağı kim istəməz ki…

Bəlkə də, bu sevgiydi, Səni sevərək sıxıntını özünə örtü edən Hz. Əbu Bəkir (r.a.) mələkləri belə heyrətə salacaq hala gətirərək: *"Rəbbin səndən razıdır, bəs, sən, Rəbbindən razısan, ey Əbu Bəkir"*,- deyərək Hz.Cəbrayıl (a.s.)in ona səslənmə səbəbi… Bəlkə də, bu sevgiydi, Hz.Bilal (r.a.)ın hər şeyi gözə alaraq qaynar qumlarda qovrulsa belə: "*Mən Allaha və onun Rəsuluna iman gətirdim*",- demə səbəbi… Bəlkə də, bu sevgiydi, Hz. Yasirin və Hz. Sümeyyənin narın cisminin vəhşicəsinə şəhid olma səbəbi...

Bəlkə də, bu sevgiydi, Hz. Əli (r.a.)ın sənin isti yatağına uzanaraq ölümü belə gözə alma səbəbi...

Bəlkə də, bu sevgiydi, Hz.Xədicə

anamızın Məkkənin öldürücü istisində gətirdiyi yemək xarab olduğu halda Məhəmmədi onun bir duasını yarıda kəsməmək üçün mağara önündə gözləmə səbəbi...

Bəlkə də, bu sevgiydi, Hz. Aişə anamızın həyatı boyu sevgili həyat yoldaşına: *"Məni nə qədər sevirsən?"*,- soruşaraq qarşılığında kor düyün kimi cavabını alaraq xoşbəxt olma səbəbi...

Bəlkə də, bu sevgiydi, kainatın var oluş səbəbi, bəlkə də, bu sevgiydi, qulluğun yaradılış qayəsi, bəlkə də, bu sevgiydi, Məkkə səhralarının susuz çöllərində qönçə gülün açış möcüzəsi, bəlkə də bu sevgiydi, Mədinənin dar daxmalarına qonaq gələn bərəkət hekayəsi.

Bəlkə də, bu sevgiydi, səni dünyaya gətirməsiylə cənnətin ayaqları altına sərildiyi analığı, nur üzünü görməsə belə sənin qədər xeyirli bir zürriyyətə sahib olmasıyla atalığı, doğma övladı kimi yetim bir körpəyə şəfqət qanadlarını açmasıyla himayəçiliyi, anam atam sənə fəda olsun deyəcək qədər səni sevməsiylə dostluğu, hüzurlu bir yuvanın təməlini qoymasıyla ailəni, dörd çiçəyin gül bağçanda açmasıyla övladlığı, sənə ümmət olmaqla 1400 illik məsafələrdən rəngindən, irqindən, milliyyətindən asılı olmayaraq bizə səslənişinlə qardaşlığı və sənin insanların dünyada ikən çox sevdikləri və bənzəməyə çalışdıqları kimsələrlə axirətdə də bərabər olacaqları müjdəsiylə sevgini gözəlləşdirən, Ey Rəhmət çiçəyim...

Mən ilk bahara həsrət, boranlı qışda açmış balaca bir çiçəyəm. Sənli ilk baharlarla məni ayıran 1400 illik məsafələr var.

Səni sevən hicrət etdiyin də, səni qarşılamağa gələn və: *"Ay doğdu üzərimizə, vəda təpələrindən"*,- deyən o balaca Mədinəlilərdən olmağın xoşbəxtliyini Mədinə xəyallarımızda yaşasaq da, sənli əsri -səadət çağlarının səadətini paylaşan balaca Əliylə dostlaşsaq da, Sənin balaca xidmətkarın Eneslə bərabər bir anlıq da olsa düşüncələrimizdə səccadəni sərməkdə, dəstəmaz suyunu gətirməkdə yardımlaşsaq da bizlər sənə həsrət zamanların balaca çiçəkləriyik.

Ata-ananın övladına etdiyi dua bir Peyğəmbərin ümmətinə etdiyi dua qədər məqbuldur buyurursan, mən də anamın duasına sevinərək cənnət bağçalarında sənlə görüşmək ümidiylə sevgi mesajımı yenicə öyrəndiyim kəlimələrin ən gözəlinin qanadlarında sənə göndərirəm, ilk baharım.

Bəlkə də, bu sevgiydi, kainatın var oluş səbəbi, bəlkə də, bu sevgiydi, qulluğun yaradılış qayəsi, bəlkə də, bu sevgiydi, Məkkə səhralarının susuz çöllərində qönçə gülün açış möcüzəsi, bəlkə də bu sevgiydi Mədinənin dar daxmalarına qonaq gələn bərəkət hekayəsi.

Arzu ƏLİYEVA

20 YANVAR FACİƏSİ AZƏRBAYCAN XALQINA QARŞI TÖRƏDİLƏN ƏN BÖYÜK CİNAYƏTDİR

20 Yanvar hadisəsi qeyrətli xalqımızın qətiyyətli mübarizəsi nəticəsində Azərbaycanın müstəqilliyə qovuşmasına gedən yolda bir dönüş nöqtəsi olmuşdur. Bu bizim həm də qəhrəmanlıq tariximizdir. Ona görə bu tarix heç bir zaman yaddaşlardan silinməməli, unudulmamalıdır.

1990 - cı il yanvar ayının 19-dan 20-ə keçən gecə, rus ordusu ağır hərbi texnika ilə ölkəmizin bir çox bölgələrinə, o cümlədən, paytaxtımız Bakı şəhərinə hücum edərək qanlı hadisələr törətmişdir. Bu zaman beynəlxalq təşkilatlar tərəfindən istifadəsi qadağan olunmuş silah və sursatlardan istifadə edən düşmən yüzdən çox günahsız və əliyalın insanı: qocaları, uşaqları, qadınları, eləcə də, gəncləri qətlə yetirmiş, çoxlu insan itkin düşmüş, işgəncələrə məruz qalmış və həbslərə atılmışdı. Bu hadisə millətimizin yaddaşına və tariximizə Qanlı 20 Yanvar faciəsi kimi həkk olunmuşdur.

20 Yanvar hadisəsi qeyrətli xalqımızın qətiyyətli mübarizəsi nəticəsində Azərbaycanın müstəqilliyə qovuşmasına gedən yolda bir dönüş nöqtəsi olmuşdur. Bu bizim həm də qəhrəmanlıq tariximizdir. Ona görə bu tarix heç bir zaman yaddaşlardan silinməməli, unudulmamalıdır.

Müstəqil Azərbaycan dövləti, onun rəhbərliyi bütün tariximizə, mədəniyyətimizə, adət-ənənələrimizə olduğu kimi, 1918-ci ilin mart, 1990-cı ilin 20 Yanvar, 1992-ci ilin Xocalı qırğınları kimi faciəli tarixlərin anılmasına da xüsusi həssaslıqla yanaşır və bununla bağlı müvafiq tədbirlər görür. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanında əsaslı yenidənqurma və təmir işlərinin görülməsi bunu bir daha təsdiqləyir.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

DÜNYANIN GÖRMƏDİYİ XOCALI FACİƏSİ – ƏSRİN ƏN QANLI SOYQIRIMI

1988-ci ildən başlamış Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ müharibəsi dövründə ən müdhiş, faciəli, dünya tarixində vəhşiliyinə görə bənzəri olmayan hadisələrdən biri Qarabağın ən qədim insan məskənlərindən biri olan Xocalıda baş vermiş soyqırım olmuşdur. Xocalı faciəsi XX əsrin ən dəhşətli və ən qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur.

1992-ci ilin 26 fevral faciəsinə kimi Xocalıda 7 min əhali yaşayırdı. Məlum hadisələr dövründə Ermənistandan, qonşu Xankəndindən ermənilər tərəfindən didərgin salınmış xeyli azərbaycanlı və 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türkləri də burada məskunlaşmışdılar.

1992-ci il fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etmişlər. Əvvəlcə şəhər dörd tərəfdən erməni qoşunları tərəfindən əhatə olunmuş, sonra isə artilleriya və ağır hərbi texnikadan güclü və amansız atəş açılmış, az vaxt ərzində şəhərdə yanğın baş vermiş, şəhər tamamilə alova bürünmüşdür. Şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur olmuşlar. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilmişdir.

Bir gecənin içərisində qədim Xocalı yerlə yeksan edilmişdir.

Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdır. Hər tərəfdə silahlı ermənilər dinc əhalini güllələmiş, onlara amansız divan tutmuşdular. Beləliklə, soyuq, qarlı fevral gecəsində nə qədər qız-gəlin əsir düşdü, girov oldular. Nə qədər insan erməni silahından yayınıb meşələrə, dağlara qaçsalar da onların çoxu soyuqdan, şaxtadan məhv oldular…

Cinayətkar erməni əsgərlərinin vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalmışdır. 150 nəfərdən çox sakinin taleyi hələ də məlum deyildir.

Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır. Ermənilər hətta meyitləri də təhqir etmişlər…

Azərbaycan xalqı və onun dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1 mart 1994-cü ildə bu haqda xüsusi Fərman vermişdir. Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral *"Xocalı soyqırımı və milli matəm günü"* elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Müyesser TAŞLIYAR

LƏZZƏT DÜNYASI

GÜL PEÇENYESİ

Ərzaqlar:
1 stəkan şəkər tozu
250 qr marqarin (və ya kərə yağı)
2 xörək qaşığı kakao
1 yumurta
1 paket qabartma tozu
1 paket vanil
1 stəkan nişasta
2 stəkan un.

Hazırlanması:

Böyük bir qabda əvvəl şəkər tozunu və yağı yaxşıca qarışdırın. Sonra yumurta, nişasta, qabartma tozu, vanili əlavə edin və yoğurun. Sonra yavaş-yavaş unu əlavə edərək yumşaq bir peçenyə xəmiri əldə edin. Hazır xəmiri iki hissəyə bölün. Bir hissəsinə kakao qatıb yoğurun. Xəmirdən fındıq böyüklüyündə parçalar kəsin və əlinizdə yuvarlayın. Sonra bir kakaolu topun ətrafına 5-6 ədəd ağ rəngli toplar qoyun və əlinizlə basdırın. Bir ağ topun da ətrafına 5-6 ədəd kakaolu top qoyaraq əlinizlə basdıraraq yapışdırın. Sonra yağlanmış formaya qoyun və 180 C istilikdə 15-20 dəqiqə bişirin. Bişdikdən sonra soyudub süfrəyə verə bilərsiniz.

Nuş olsun!

EVDƏ HAZIR-LANAN PİZZA

Xəmir üçün ərzaq:
6 qəhvə fincanı un
2 fincan qatıq
1 fincan bitki yağı
1 paket qabartma tozu
1 ədəd yumurta

Hazırlanması:

Xəmiri yoğurduqdan sonra 30 dəqiqə saxlayırıq. Sonra isə əlimizlə formaya yayırıq. Üstünə tomatlı sous hazırlayıb sürtürük. İstədiyiniz və sevdiyiniz şəkildə evdə olan ərzaqlardan: kolbasa, sosiska, holland pendiri, göbələk, zeytun və s. istifadə edə bilərsiniz. 170 C temperaturda isidilmiş sobada bişirə bilərsiniz.

Nuş olsun!

SOSİSKA SALATI

Ərzaqlar:
9-10 ədəd sosiska
Yarım kasa zeytun
1 ədəd qırmızı bibər
Yarım dəstə cəfəri
Yarım dəstə təzə nanə
1 ədəd kartof
1 ədəd turşu xiyar
Duz, istiot
Zeytun yağı
Sumaq ve turş nar

Hazırlanması:

Bütün ərzaqları incə-incə doğrayıb bir qabın içinə əlavə edirik. Sonra isə zeytun yağını, duzu, istiotu, sumağı, turş narı üzərinə əlavə edib süfrəyə veririk.

Nuş olsun!

Məryəm XƏLİLOVA

FAYDALI MƏSLƏHƏTLƏR

• Şokolad sousu hazırlanarkən içinə bir az qəhvə qoyulsa dadı daha fərqli olar.

• Tərəvəzləri duzlu suda yumağı adət halına gətirin. Duzlu su tərəvəzləri daha təsirli və tez təmizləyir.

• İşlətdiyiniz tomatların xarab olmaması üçün üzərinə duz səpib, bir az zeytun yağı əlavə edərək uzun müddət saxlaya bilərsiniz.

• Soğanı qovurduqda üzərinə bir az un əlavə olunarsa qaralmaz.

• Quru noxudu, lobyanı bir gün əvvəldən ilıq suda saxlayın və qaynadarkən içinə bir az məişət sodası əlavə edin.

• Qazlı içkilərin təsirinin azalmaması üçün soyuducuda başıaşağı yerləşdirin.

CƏMİYYƏT İÇİNDƏ DAVRANIŞ QAYDALARI

- Lovğalıq, qürur, özündən razı olmaq dostlarımız qarşısında bizi gözdən salır. Əgər bir insanla dost olmaq istəyiriksə bu davranışlardan uzaqlaşmalıyıq.



- Mədəni və tərbiyəli insan olmağın bir yolu da dostlarımızı yaxşı seçməkdir. Mədəni və əxlaqlı bir dost bizim də mədəni və əxlaqlı olmağımıza böyük təsir edir. Davranışlarına diqqət etməyən dost isə bizi hər zaman çətinliyə salır.



- Biri danışarkən onun sözünü kəsməməliyik. Bir şey soruşmaq və ya əlavə etmək üçün onun sözünü tamamlamasını gözləməliyik.



- Boş yerə axan su, lazımsız yerə yanan işıq, zibilliyə atılan yeməklər israfdır. İsrafdan uzaq durmalıyıq.

Hicran NOVRUZOVA

GƏLİN BİRLİKDƏ GÜLƏK

DAHA ÇOX SEVİLƏN DOST



Əmisi Azərdən soruşdu:

-Sinifdə daha çox sevdiyin dostun kimdir?

-Əmi, sinifdə ən çox sevdiyim dostum Orxandır. Çünki keçən dərs ili bütün sinifə qrip yaydı. Onun sayəsində 20 gün məktəbə getmədik. Tətil etdik.

İNDİ BAŞA DÜŞDÜM

Bir gün uşaq anasından soruşur:

-Anacan, sənin saçların niyə ağarır.

Anası:

-Oğlum, sən məni hər dəfə qəzəbləndirəndə saçımın bir teli ağarır. Əlbəttə, səbəbsiz deyil.

Uşaq anasından eşitdiklərini başa düşdüyü şəkildə izah etməyə başlayır:

-Hə, indi başa düşdüm ki, niyə nənəmin saçları da ağarmışdır.

ŞƏKİL ÇƏKİRƏM

Bir gün Leyla ağacın altında oturub şəkil çəkirdi. Atası qızının əlində boş kağızı görüb soruşur:

- Leyla, nə şəkli çəkirsən, baxım?

- Çəmənlikdə bir keçi şəkli.

- Bəs, çəmənlik harda?

- Keçi hamısını yedi.

- Bəs keçi?

- Yeməyə bir şey qalmayanda o da getdi.

ULDUZLAR

Müəllim sinifdə göy üzü ilə əlaqəli bir yazı oxudu. Sonra uşaqlara bu yazıyla bağlı suallar verdi:

-Aytən ulduzları say baxım.

Aytən düşünmədən başladı:

-Pop ulduzları, yeni ulduz, estrada ulduzları, kino ulduzları...

TAPMACALAR

Bizə aid olduğu halda başqalarının işlətdiyi şey nədir?

(Adımız)

Yuvarlağıq, qızıldanıq,
Bir qolda toplanırıq.

(Bilərzik)

Toyuqlar ən çox hansı ölkəni sevir?

(Misiri)

İki şüşəli pəncərə, baxıb durur hər yerə.

(Eynək)

Həm dənizdə, həm quruda evini daşıyar belində.

(Tısbağa)

Mavi atlas, iynə batmaz, qayçı kəsməz, dərzi biçməz.

(Göy üzü)

Ayaqları su içər, üstündən gələn keçər.

(Körpü)

Dağdan gəlir, daşdan gəlir, bir kükrəmiş aslan gəlir.

(Sel)

Sıra-sıra otaqlar, bir-birini qovarlar.

(Qatar)

Ocaq başında quyu,
Quyunun içində suyu,
Suyun içində ilan,
İlanın ağzında mərcan.

(Lampa)

Vahid VƏLİYEV

BOYAMA